QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 002 (5474) 6 **yanvar** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan işğal edilmiş torpaqlarda istənilən hədəfi məhv edə bilər

*İlham Əliyev: “Yoxsul Ermənistandan fərqli olaraq, biz bütün hərbi texnikanı öz hesabımıza alırıq və Azərbaycanda da bu texnikanı istehsal edirik”*



Səh 2

## “AŞPA-nın yanvar sessiyasına Azərbaycan nümayəndə heyəti yenilənmiş tərkibdə gedəcək”

Bax 4

Avropa Şurası Parlament Assambleyasının yanvar sessiyasına Azərbaycan nümayəndə heyəti yenilənmiş tərkibdə gedəcək. Parlamentin mətbuat xidmətindən bildiriblər ki, bu sözləri Avropa Şurası Parlament Assambleyasında Milli Məclisin nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib. Səməd Seyidov deyib: “Təşkilata üzv ölkələr AŞPA-nın qış sessiyasına nümayəndə heyətlərinin yeniləşmiş tərkibi...”

## Azərbaycanın prokurorluq orqanları cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlər həyata keçirib

Bax 7

Yanvarın 5-də Baş Prokurorluqda 2017-ci ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib. AZƏRTAC xəbər verir ki, müşavirədə çıxış edən baş prokuror Zakir Qaralov xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiq qalan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi hərtərəfli...

## Ötən il Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini 13 mindən çox insan ziyarət edib

Bax 4

Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev Muzeyini ötən il ziyarət edənlərin sayı 13 min 165 nəfər olub. Onlardan 2 min 928-i xarici ölkədən gələn vətəndaşlardır. AZƏRTAC xəbər verir ki, 2017-ci ildə muxtar respublikada fəaliyyət göstərən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, eləcə də digər təşkilat və qurumların əməkdaşlarının muzeylərə ekskursiyaları davam etdirilib. Ötən il Heydər Əliyev Muzeyinə 1733 ekskursiya....

Dövlət başçısının səhiyyəyə qayğısı ilbəil artır



5

Heydər Əliyev Fondunun həyata keçirdiyi xoşməramlı layihələri davam edir



3

“Azərbaycan aqrar elmi” jurnalının xüsusi buraxılışı akademik Həsən Əliyevə həsr olunub



6

Pakistan mətbuatı: “Müqəddəs məscidləri dağıtmış təcavüzkar ölkə müsəlman ölkəsinin dostu ola bilməz”



6

Müasir turizm infrastrukturu Azərbaycana turist axınını gücləndirir



10

Erməni xalqı üsyana hazırlaşır



13

9

Reyhan Camalova “ASAN xidmət”in İdeya müvəkkili oldu



11

Şahbuzda mədəniyyət evi tikilir



16

PSJ-dən Ronaldoya 300 milyon avro!



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

6 yanvar 2018-ci il

# Azərbaycan işğal edilmiş torpaqlarda istənilən hədəfi məhv edə bilər

*Prezident İlham Əliyev: "Yoxsul Ermənistandan fərqli olaraq, biz bütün hərbi texnikanı öz hesabımıza alırıq və Azərbaycanda da bu texnikanı istehsal edirik"*



Torpaqlarımızın işğal altında qaldığı bir vaxtda Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daim artırılması qarşıda dayanan mühüm vəzifələrdəndir. Buna səbəb isə, respublikamızın 20 faizə qədər ərazisi işğal olunub, 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Dünyanın əksər beynəlxalq təşkilatlarının müvafiq sənədlərində Ermənistanın işğalçı qoşunlarının Azərbaycanın bütün istila edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilsə də, Ermənistan buna məhəl qoymur. 1994-cü ildən başlayaraq, aparılan sülh danışıqlarına gəldikdə isə, bütün həll variantları yenə də Ermənistanın qeyri-konstruktivliyi ucbatından alınmır. Lakin sülh danışıqlarının nəticəsiz qaldığı, Ermənistanın təxribatlarının davam etdiyi şəraitdə Azərbaycanın münaqişənin hərb yolu ilə həllini nəzərdən keçirməsi qaçılmazdır. Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Ermənistan öz çirkin mövqeyindən geri çəkilməyəcəyi halda, Azərbaycan müharibə variantına gedə bilər. Müharibə variantında kimin qalib gələcəyini bütün dünya bilir. Təkcə ordumuzun ötənilki aprel zəfərini misal gətirmək yetərlidir. Reallıq ondan ibarətdir ki, Azərbaycanın inkişafı və artan maliyyə imkanları silahlı qüvvələrimizin də müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Hazırda Cənubi Qafqazın ən böyük gücünə malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralardadır. Həm texniki təchizat, həm də döyüş qabiliyyəti baxımından dünya miqyasında güclü ordular sırasında qərarlaşan Azərbaycan Ordusu istənilən hərbi vəzifəni icra etməyə qadirdir. Bu faktı beynəlxalq analitik mərkəzlərin mütəmadi açıqladıqları reytinq siyahıları da təsdiqləyir. Avqust ayında "Global Firepower" beynəlxalq şirkətinin dünyanın ən yaxşı ordularının yenilənmiş reytinqi ilə bağlı hazırladığı hesabatda Azərbaycan Ordusu 58-ci pilləyə yüksəlmişdi. İşğalçı Ermənistanın ordusu isə siyahıda 93-cü yeri tuta bilmişdi.

Azərbaycan vətəndaşları silahlı qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərini ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda və genişmiqyaslı təlimlərdə görüb. Hər kəs Azərbaycanın mükəmməl hərbi gücə malik olduğuna şahidlik edib. Təsdiq olunub ki, Azərbaycan Ordusu arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir. Ən fərəhlisi odur ki, bu gün dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar Azərbaycanda var.

Azərbaycan dövləti, həmişə olduğu kimi, bu il də silahlı qüvvələrinin hərbi potensialının gücləndirilməsinə böyük diqqət göstərib. Qoşunların döyüş qabiliyyətini yüksək səviyyədə saxlamaq məqsədilə hissə və bölmələr müasir artilleriya qurğuları, ən müasir reaktiv yaylım atəşi sistemləri, toplar, taktiki raket, zenit-raket kompleksləri, ağır odatan sistemlər, pilotsuz uçuş aparatları, yeni növ döyüş sursatları və müxtəlif təyinatlı təmir və komanda müşahidə maşınları ilə təmin edilib. Orduda həyata keçirilən islahatların nəticəsidir ki, Azərbaycan əsgəri bu gün havada, suda və quruda vətənin maraqlarını şərəflə qoruyur. Hərbi hissələrin əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə komplektləşdirilməsi ardıcıl şəkildə həyata keçirilir. Bununla yanaşı, birinci əməliyyat eşelonu birliklərində dayanıqlı müdafiənin təmin olunması istiqamətində əməli tədbirlər görülüb, müdafiə sistemi təkmilləşdirilib, qoşunların döyüş qabiliyyəti yüksək səviyyədə saxlanılıb. Bütün bunlara baxmayaraq, Azərbaycan dövləti müxtəlif ölkələrdən yeni silahlar və ən müasir texnika almaqla ordunun arsenalını gücləndirməkdə davam edir. Ali Baş Komandan İlham Əliyev bu məsələyə toxunaraq deyib: "Bu günün özündə biz işğal edilmiş torpaqlarda istənilən hədəfi məhv edə bilərik. Amma biz öz hərbi potensialımızı daha da gücləndirməliyik. Buna ehtiyac var və buna bizim imkanlarımız çatır. Yoxsul Ermənistandan fərqli olaraq, biz bütün hərbi texnikanı öz hesabımıza alırıq və Azərbaycanda da bu texnikanı istehsal edirik. Bu il Azərbaycanda iki yeni hərbi zavod fəaliyyətə başlamışdır. Bu gün Azərbaycan həm özünü böyük dərəcədə silah-sursatlarla təmin edir, eyni zamanda, xarici ölkələrə də ixrac edir".

Əlbəttə ki, Azərbaycanın iqtisadi qüdrətinin getdikcə artması silahlı qüvvələrimizin daha da möhkəmlənməsinə, müasir silahlara, modern texnologiyaya yiyələnməsinə geniş imkan yaradıb. Bu gün Azərbaycan güclü hərbi-sənaye kompleksi formalaşdırıb və ən güclü hərbi sənayeyə malik olan ölkələrdən biridir.

Noyabrın 27-də Ali Baş Komandanın göstərişinə əsasən, cəbhə bölgəsində zabitlər üçün inşa edilmiş daha bir yaşayış kompleksinin açılışı, noyabrın 28-də isə, dövlət başçısının Tərtər və Ağcabədi rayonlarının ərazisində yerləşən "N" saylı hərbi hissələrdə yaradılan şəraitlə şəxsən tanış olması söylənilənləri bir daha təsdiq edir. Öncə Tərtərdəki "N" saylı hərbi hissədə olan Ali Baş Komandan burada yaradılan şəraitlə tanış olub. 6 hektar ərazisi olan hərbi hissədə qərargah binası, üç əsgər yataqxanası, 360 nəfərlik əsgər yeməkxanası, müxtəlif təyinatlı anbarlar, məişət otaqları və digər infrastruktur bölmələri və 100 maşınlıq avtomobil parkı yerləşir. Torpaqlarımızın qorunması və ərazi bütövlüyü uğrunda bu hərbi hissənin şəxsi heyəti də yüksək fədakarlıq göstərib. Onlarla hərbi qulluqçu yüksək fəxri adlara, o cümlədən, 8 hərbi qulluqçu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Hərbi hissəyə 2004-cü ildə Ali Baş Komandan tərəfindən döyüş bayrağı təqdim edilib. Ağcabədidəki "N" saylı hərbi hissədə isə qərargah binası, əsgər yataqxanaları, yeməkxana kompleksi, tibb məntəqəsi və digər binalar inşa olunub. Qərargah binasında komandirlərin otaqları və konfrans zalı və digər otaqlar var. Binada komandir heyətinin səmərəli və operativ işləməsi üçün bütün zəruri şərait mövcuddur.

Ali Baş Komandan İlham Əliyev hərbi hissənin əsgər yataqxanasında olub, burada şəxsi heyət üçün yaradılmış sosial-məişət şəraiti ilə maraqlanıb. Binada ideoloji, məişət və digər zəruri otaqlar hərbçilərin ixtiyarına verilib. Əsgərlərin idmanla məşğul olmaları üçün yataqxana kompleksində trenajor zalı da yaradılıb. Hərbi hissədə interaktiv təlim-məşq sistemi də mövcuddur. Burada şəxsi heyətin sinif şəraitində atəş qabiliyyətinin artırılması təlimləri keçirilir. Göründüyü kimi, iki hərbi hissənin timsalında ordumuzda yaradılan yüksək şəraitin şahidi oluruq və bu şərait də, öz növbəsində, Azərbaycan Silahlı Qüvvələrinin hər zaman öz döyüşkən ruhunu qorumasına imkan verir. Döyüş qabiliyyəti gücləndirilən ordumuzda vətənpərvərlik ruhu bu gün ən yüksək səviyyədədir. Bununla da, millətimizin güvənc yeri, qürur, ləyaqət rəmzi və özünütəsdiq imkanı olan Azərbaycan Ordusu xalqın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir. Xalqın silahlı qüvvələrə olan inamı isə ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında ordunun şəxsi heyətinə böyük etimad yaradır. Böyük ruh yüksəkliyinə səbəb olan bu hadisələr, bir daha göstərir ki, Azərbaycan xalqı torpaqlarımızın itirilməsi ilə barışmayıb və heç vaxt da barışmayacaq. Tərtər rayon ictimaiyyətinin nümayəndələri və məcburi köçkünlərlə görüşdə çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev bir daha bu məsələyə toxunaraq deyib: "Bizim səylərimiz və yorulmaz fəaliyyət nəticəsində dünyada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı birmənalı fikir formalaşıb. Bütün mötəbər beynəlxalq təşkilatlar Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bunu təsdiqləyən bir çox qərar və qətnamələr qəbul edilmişdir. Dağlıq Qarabağın tarixi keçmişi haqqında biz bütün dünyaya məlumatlar təqdim edirik... Heç vaxt biz imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın".

***"Səs" Analitik Qrupu***

## Rəsmi xronika

Prezident İlham Əliyev yanvarın 5-də "Saatlı rayonunun Saatlı-Dədə Qorqud-Əhmədbəyli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, dörd min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Saatlı-Dədə Qorqud-Əhmədbəyli avtomobil yolunun tikintisi məqsədilə dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 700 min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

# Heydər Əliyev Fondunun həyata keçirdiyi xoşməramlı layihələr davam edir

*Mehriban Əliyeva: "...Bizim həyata keçirdiyimiz hər bir layihə, ilk növbədə, vətəndaşların maraqlarını qorumağa və köməyə ehtiyacı olan insanlara yardım etməyə yönəlib"*



***Beynəlxalq aləmdə ciddi mövqe qazanaraq qüdrətli dövlətə çevrilən Azərbaycanın bütün şəhər və rayonlarında abadlıq-quruculuq işləri aparılır, infrastruktur layihələri həyata keçirilir. Müasir Azərbaycanın istənilən sahəsində əldə edilən nailiyyətlər ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında özünü büruzə verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə regionların inkişafı strategiyasının uğurla həyata keçirilməsi, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin uğurlu icrası ölkəmizin sosial-iqtisadi inkişafına müsbət təsirini göstərib. Bu uğurların əldə olunmasında, mühüm layihələrin reallaşdırılmasında Heydər Əliyev Fondun da rolu müstəsnadır. Yarandığı zamandan ictimai həyatın bütün sahələrinə nüfuz edərək elm, təhsil və səhiyyə sahəsində həyata keçirdiyi layihələri, eləcə də humanizm, xeyriyyəçilik, və insansevərlik idealları böyük rəğbətlə qarşılanıb. Cəmiyyətin daha çox qayğıya ehtiyacı olan təbəqələrinə, valideyn himayəsindən məhrum olmuş uşaqlara, şəhid ailələri, qaçqın və məcburi köçkünlərə yönələn layihə və proqramlarını ardıcıl olaraq həyata keçirib.***

### "ÖLKƏMİZİN İCTİMAİ-SİYASİ, SOSİAL-MƏDƏNİ HƏYATINI ƏHATƏ EDƏN MÜHÜM LAYİHƏLƏRİN REALLAŞDIRILMASI İSTİQAMƏTİNDƏ UĞURLU NƏTİCƏLƏR ƏLDƏ EDİLMİŞDİR"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2016-cı ilin fevral ayında təsis edilən "Regional İnkişaf" İctimai Birliyi də vətəndaş cəmiyyəti quruculuğunda əhəmiyyətli layihələr reallaşdırıb. Bölgələrdə yaşayan vətəndaşların üzləşdiyi problemlərin, yerli əhalini kompleks şəkildə narahat edən problemlərin aradan qaldırılması kimi məsələləri əsas məqsəd kimi qarşıya qoyaraq elm, təhsil, səhiyyə, mədəniyyət, sosial, idman, ekologiya, İKT və infrastruktur layihələri həyata keçirir. Qısa bir zaman məsafəsində insan kapitalının formalaşdırılması, əhalinin tibbi sağlamlığının mühafizəsi, sosial-məişət təminatının yaxşılaşdırılması istiqamətində müxtəlif səpgili tədbirlər həyata keçirib. İnsanların müxtəlif növ problemlərlə üzləşərək onların həlli üçün ayrı-ayrı qurumlara müraciət edən "Regional İnkişaf" İctimai Birliyi, məhz həmin problemləri aidiyyəti təşkilatlara çatdıran vasitəçi qurum kimi fəaliyyətini davam etdirir. Bu günlərdə "Regional İnkişaf" İctimai Birliyinin keçirdiyi Birinci Konfransda qeyd olunduğu kimi, İctimai Birlik rayon sakinlərindən yaşayış evlərinə kollektiv müraciət əsasında ilkin mərhələdə 105 evə dövlət reyestrindən çıxarış hazırlanaraq təqdim edilib. "Regional İnkişaf" İctimai Birliyi və Böyük Britaniyanın Azərbaycana Birgə Yardım Təşkilatı arasında əməkdaşlıq haqqında imzalanan memorandum çərçivəsində UAFA nümayəndələri Biləsuvar və Cəlilabad rayonlarında 300-dən çox aztəminatlı və sosial dəstəyə ehtiyacı olan ailədə görüşlər keçirib, onlara müxtəlif dövlət qurumlarının xidmətlərindən istifadəsinin genişləndirilməsi, ailə sahibkarlığının, davamlı kənd təsərrüfatı imkanlarının inkişaf etdirilməsi, müasir metodologiyalardan istifadə etməklə uşaqlara aid səhiyyə, təhsil, habelə, sosial xidmətlər şəbəkəsinin gücləndirilməsi istiqamətində təşkilati və hüquqi yardım göstərib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın konfrans iştirakçılarına ünvanladığı məktubda bildirilir ki, bizim həyata keçirdiyimiz hər bir layihə, ilk növbədə, vətəndaşların maraqlarını qorumağa və köməyə ehtiyacı olan insanlara yardım etməyə yönəlib: "Regional İnkişaf" İctimai Birliyini təsis edərkən əsas məqsədimiz dövlət qurumları, qeyri-hökumət təşkilatları, sahibkarlar və yerli əhali arasında konstruktiv əməkdaşlıq modeli yaradaq, insanları narahat edən problemlərin aradan qaldırılmasına nail olmaq idi. Düşünürəm ki, biz bunu bacardıq. Regionlarda ictimai nəzarətin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğu, ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatını əhatə edən mühüm layihələrin reallaşdırılması istiqamətində uğurlu nəticələr əldə edilmişdir".

Həqiqətən də, "Regional İnkişaf" İctimai Birliyi qısa bir vaxt ərzində regionların həyatında mühüm rol oynayıb. Birliyin müxtəlif regional mərkəzləri respublikanın şəhər və rayonlarında təşkilatın qarşıya qoyduğu vəzifələrdən irəli gələrək ayrı-ayrı sahələr üzrə təhlillər aparır. Əhali ilə sıx münasibətlərin qurulması, mövcud problemlərin aşkarlanması, müxtəlif sahələr üzrə birbaşa məlumatların əldə edilməsi məqsədilə vətəndaşlarla yerlərdə görüşlər keçirirlər. RİİB-in regionlarda ictimai nəzarətin həyata keçirilməsində, region sakinləri ilə dövlət və bələdiyyə orqanları arasında dialoqun inkişaf etdirilməsində göstərdiyi təşəbbüslər də diqqətəlayiqdir. İctimai Birliyin üzvləri və könüllülər sakinlərlə daima ünsiyyətdə olur. Təbii ki, bütün görülən işlər Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrdən qaynaqlanır.

**Nəzakət ƏLƏDDİNQIZI**



# Ötən il Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini 13 mindən çox insan ziyarət edib




***Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev Muzeyini ötən il ziyarət edənlərin sayı 13 min 165 nəfər olub. Onlardan 2 min 928-i xarici ölkədən gələn vətəndaşlardır. AZƏRTAC xəbər verir ki, 2017-ci ildə muxtar respublikada fəaliyyət göstərən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, eləcə də digər təşkilat və qurumların əməkdaşlarının muzeylərə ekskursiyaları davam etdirilib. Ötən il Heydər Əliyev Muzeyinə 1733 ekskursiya təşkil olunub.***





Bəhs olunan dövrdə muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili məktəblərinin tələbələrinin, həmçinin orta məktəblərin şagirdlərinin iştirakı ilə muzeydə 85 açıq, 4 interaktiv dərs təşkil olunub, 5 tədbir keçirilib.

Heydər Əliyev Muzeyi naxçıvanlılarla yanaşı, ölkəmizin digər regionlarından və xarici dövlətlərdən muxtar respublikaya gələn qonaqların da ən çox üz tutduqları ünvandır.



Muzey görkəmli dövlət xadiminin həyat və siyasi fəaliyyətini əks etdirən eksponatlarla zəngindir və daim yeni eksponatlar gətirilir. Bu gün eksponatların sayı 4 min 678-ə çatdırılıb. Onlardan 49-u 2017-ci ildə muzeyə verilib. Azərbaycanın müasir dövlətçilik tarixi və Ümummilli Liderin siyasi irsi ilə maraqlananlar dəyərli məlumatlar əldə etmək üçün bu mədəniyyət müəssisəsinin kitabxana fondundan da səmərəli istifadə edə bilirlər. Hazırda Heydər Əliyev Muzeyinin kitabxanasında 615 adda 1255 kitab var.

## Səməd Seyidov: "AŞPA-nın yanvar sessiyasına Azərbaycan nümayəndə heyəti yenilənmiş tərkibdə gedəcək"



Avropa Şurası Parlament Assambleyasının yanvar sessiyasına Azərbaycan nümayəndə heyəti yenilənmiş tərkibdə gedəcək. Parlamentin mətbuat xidmətindən bildiriblər ki, bu sözləri Avropa Şurası Parlament Assambleyasında Milli Məclisin nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib. Səməd Seyidov deyib: "Təşkilata üzv ölkələr AŞPA-nın qış sessiyasına nümayəndə heyətlərinin yeniləşmiş tərkibi ilə qatılacaqlar. Bu AŞPA-ya üzv dövlətlərdə qəbul olunmuş normal bir prosesdir.

Azərbaycan nümayəndə heyətinin tərkibində də rotasiya qaydasında dəyişiklik edilib. Belə ki, deputatlardan Ülviyyə Ağayeva, Elşad Həsənov və Asim Mollazadə yeni tərkibə daxil ediliblər. Nümayəndə heyətinin keçmiş üzvləri Elxan Süleymanov, Elşən Musayev və Müslüm Məmmədov parlamentin beynəlxalq əlaqələrinin digər istiqamətlərində fəaliyyətlərini davam etdirəcəklər".

## Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu birgə tədbirlər planı imzalayıb

2018-ci ildə Azərbaycan Ordusunda hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması məqsədilə Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, plana əsasən keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vaxtı, keçirilmə yeri və məsul şəxslər müəyyən edilib. İl ərzində birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində müxtəlif kateqoriyalardan olan hərbi qulluqçularla nəzərdə tutulan görüşlərdə şəxsi heyətin hüquqi biliklərinin artırılması, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, mövcud problemlərin aradan qaldırılması istiqamətində müəyyən olunmuş tədbirlər və digər fəaliyyətlər həyata keçiriləcək.




## Braziliya jurnalında Xəzər dənizinin hüquqi statusundan bəhs edən məqalə dərc olunub

Braziliyanın Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin jurnalında Xəzər dənizinin hüquqi statusundan bəhs edən məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, "Dəniz, yoxsa göl? Xəzərin statusunun qeyri-müəyyənlik dövrü başa çatmaq üzrədir" sərlövhəli analitik məqalədə müəllif Rodriqo Montero de Karvalyo Xəzərin hüquqi statusu ilə bağlı son danışıqlar haqqında yazır. O, dekabrın əvvəlində Moskvada baş tutan danışıqlardan sonra Rusiyanın xarici işlər naziri Sergey Lavrovun nikbin bəyanatını qeyd edir və yekun razılaşmanın 2018-ci ilin ilk yarısında imzalanacağının gözlənilən olduğunu bildirir. Xəzərin karbohidrogen resurslarından söz açılan məqalədə hələ XIX əsrin ikinci yarısından başlayaraq Bakıda neft sənayesinin inkişaf etdiyi oxucuların diqqətinə çatdırılır. Sovet İttifaqının süqutundan sonra Xəzərdəki neft yataqlarını Qərb şirkətlərinin üzünə açan ilk ölkənin məhz Azərbaycan olduğunu qeyd edən müəllif "Əsrin müqaviləsi" haqqında geniş məlumat verir.



# Dövlət başçısının səhiyyəyə qayğısı ilbəil artır

## *İlham Əliyev: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və insanların sağlamlığı sosial sahədə prioritet məsələlərdən biridir"*

***Azərbaycanda səhiyyənin inkişafı ilə bağlı islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindəndir. Son illər Azərbaycan Prezidenti İlham Əliyevin səhiyyənin inkişafı ilə bağlı həyata keçirdiyi məqsədyönlü siyasət və verdiyi sərəncamlar bu sahənin keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşməsinə səbəb olub. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu istiqamətdə aparılan siyasətin əsas prioritetləridir. Vətəndaşların pulsuz dərman vasitələri və preparatlarla təchiz olunması, müalicəsi, müayinəsi regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsi, uşaqların bütün növ tibbi xidmətlərlə ən yüksək səviyyədə əhatə olunması səhiyyə sahəsində islahatların əsasını təşkil edir.***



Ölkəmizin hər yerində əhalinin tibbi xidmətlərlə keyfiyyətli şəkildə təmin olunması üçün bütün növ müayinə və müalicəni, əməliyyatları həyata keçirməyə imkan verən yeni müəssisələr yaradılmışdır. Ölkəmizdə 600-dən çox xəstəxana, tibb obyekti əsaslı təmir olunaraq, yenidən tikilməsi fikirlərimizi əsaslandırır. Azərbaycan Prezident İlham Əliyev çıxışlarının birində qeyd edib ki, bu sahəyə ayrılan vəsait dövlətin siyasətini və niyyətini ifadə edir: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və insanların sağlamlığı sosial sahədə prioritet məsələlərdən biridir".

Bir neçə ildir ki, Cənab Prezidentin göstərişi ilə vətəndaşların kütləvi müayinədən keçmə kampaniyası aparılır. "Mən xatırlayıram, yeni istifadəyə verilmiş bütün tibb ocaqlarında vətəndaşlarla görüşlər zamanı onlara söyləyirdim ki, siz mütləq ildə bir dəfə müayinədən keçməlisiniz", - deyən dövlət başçısı artıq buna nail olduğumuzu vurğulayır: "... bölgələrdə, tibb mərkəzlərində yaşanan izdiham onu göstərir ki, vətəndaşlar bu imkanlardan böyük həvəslə istifadə edirlər. Bu, ilk növbədə, insanlara lazımdır, eyni zamanda, dövlətimizin inkişafı üçün də bunun çox böyük mənası var. Çünki sağlam millət, sağlam cəmiyyət, əlbəttə ki, hər bir ölkənin inkişafı üçün çox vacibdir".

### ...DÜNYA SƏVİYYƏSİNDƏ ƏN YÜKSƏK QİYMƏTƏ LAYİQ OLAN BİR MƏRKƏZ

2017-ci il də səhiyyə sahəsində uğurlu il olaraq yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş siyasətinin, möhkəm iradəsinin məntiqi nəticəsi olaraq, hətta bütün dünya üçün çətin olan son illərdə də ölkəmiz inkişafı davam etdirilib. Azərbaycanda çoxsaylı səhiyyə müəssisələrinin tikintisi, əsaslı təmiri və müasir avadanlıqlarla təchiz edilməsi də ötən il də həyata keçirildi. 2017-cı ildə Sabirabad, Neftçala rayon Mərkəzi Xəstəxanaları istifadəyə verildi. Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun açılışı oldu. Masallı rayon Mərkəzi Xəstəxanasında təmir işləri başa çatmış və əhalinin istifadəsinə verildi. Bütün bu və ya digər xəstəxanalarla yanaşı, ötən il səhiyyə sahəsində yadda qalan hadisələrdən biri də Bakıda "Ürək Mərkəzi"nin açılışı oldu. Mərkəzin yaradılmasında əsas məqsəd Azərbaycanda ürək xəstəliklərinin profilaktikasında, erkən diaqnostikası və müalicəsində beynəlxalq standartlara uyğun xidmətin, keyfiyyət sisteminin tətbiqinə təkan vermək, həmçinin, bu sahədə çalışan peşəkarların dolğun fəaliyyətinə hərtərəfli şərait yaratmaqdır. Bu tibb müəssisəsi də ən son elmi-texniki yeniliklərə əsaslanan texnologiya və avadanlıqlarla təchiz edilib. "Ürək Mərkəzi"ndə həm böyüklərdə, həm də uşaqlarda ən son texnoloji nailiyyətlərə əsaslanan avadanlıq və cihazların köməyi ilə müayinə və müalicə, eləcə də, kardioloji-invaziv və açıq cərrahiyyə əməliyyatları həyata keçirilir. Müasir standartlara cavab verən Mərkəz Cənab Prezidentin vurğuladığı kimi, dünya səviyyəsində ən yüksək qiymətə layiq olan bir mərkəzdir: "Həm bunun tikintisi, həm daxili dizaynı, əlbəttə ki, avadanlığı, müasir texnologiyalar, hər şey burada ən yüksək səviyyədə təşkil olunubdur". Cənab İlham Əliyev belə gözəl mərkəzlərin yaradılmasını ölkəmizin ümumi inkişafının göstəricisi olduğunu bildirib: "... əgər bu mərkəz dünyanın ən qabaqcıl tibb mərkəzlərindən fərqlənirsə, ancaq müsbət istiqamətdə fərqlənir. Çünki bu səviyyədən daha yuxarı səviyyəni təsəvvür etmək mümkün deyil".

Əhaliyə göstərilən tibbi xidmətin genişləndirilməsində və keyfiyyətinin artırılmasında səhiyyənin ayrı-ayrı sahələri üzrə qəbul edilmiş dövlət proqramlarının xüsusi rolunu da qeyd etməliyik. Uşaqların icbari dispanserizasiyası Dövlət Proqramı çərçivəsində 2017-ci ildə uşaqların 90 faizdən çoxu müayinələrə cəlb olunub. Tibbi müayinədən keçirilmiş uşaqların 5,1 faizi sağlamlıq vəziyyətinə görə dispanser qeydiyyata götürülüb, 1 faizi isə, ixtisaslaşdırılmış tibb müəssisələrinə hospitalizasiya olunub. Bu Proqramının icra müddəti başa çatdığından, Səhiyə Nazirliyi tərəfindən 2018-2022-ci illər üçün yeni Dövlət Proqramının layihəsi hazırlanaraq, Nazirlər Kabinetinə təqdim edilib. "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı" çərçivəsində, mütəmadi olaraq, ana və uşaqlara xidmət göstərən tibb müəssisələrinin, xüsusən, neonatoloji reanimasion şöbələrin maddi-texniki bazası gücləndirilib, dərman preparatları və tibbi texnika ilə təminatı yaxşılaşdırılıb. Son illər əhalinin donorluğa cəlb edilməsi işinin aktivləşdirilməsi nəticəsində, tədarük olunan qan və onun komponentlərinin miqdarı ilbəil artırılır. Belə ki, 2010-cu ildə 19,5 ton qan tədarük edilmişdirsə, 2017-ci ildə bu rəqəm 37 tondan çox olub. Qanın bədxassəli xəstəlikləri ilə xəstələnmənin və bu səbəbdən, ölüm hallarının yüksək göstəriciləri, bu xəstəliklərə, əsasən, əmək qabiliyyəti yaşında olan insanların və uşaqların düçar olması, müayinə və müalicə xərclərinin xəstələr üçün ağır maddi yük olmasını nəzərə alaraq, "2017-2021-ci illər üçün qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı" qəbul edilib.

### "İNDİ AZƏRBAYCANDA ƏN MÜRƏKKƏB ƏMƏLİYYATLAR APARILIR VƏ BU GÜN BİZİM SƏHİYYƏ SİSTEMİMİZİN HƏM MADDİ-TEXNİKİ TƏMİNATI, HƏM DƏ KEYFİYYƏTİ BÖYÜK DƏRƏCƏDƏ ARTIR"

Bu gün ölkəmizdə əvvəllər əlacı olmayan bir sıra xəstəliklər müalicə edilir, mürəkkəb əməliyyatlar, o cümlədən, qaraciyər transplantasiyası, süni oynaq və açıq ürək əməliyyatları aparılır. 2017-ci ildə 9 nəfərə qaraciyər, 81 nəfərə böyrək köçürülüb, 79 xəstəyə endoprotezləşmə əməliyyatı aparılıb. Yalnız 2017-ci ildə dövlət hesabına 1106 xəstəyə 966 açıq, 140 qapalı ürək əməliyyatı icra olunub. O cümlədən, 266 uşağa 201 açıq, 65 qapalı kardiocərrahiyyə əməliyyatı icra olunub. Azərbaycan Prezidentin qeyd etdiyi kimi, son illər ərzində Azərbaycanda səhiyyə sahəsində çox böyük işlər görülübdür: "Demək olar ki, biz səhiyyə sahəsinin maddi-texniki bazasını artıq yaratmışıq. İndi Azərbaycanda ən mürəkkəb əməliyyatlar aparılır və bu gün bizim səhiyyə sistemimizin həm maddi-texniki təminatı, həm də keyfiyyəti böyük dərəcədə artır. Beynəlxalq qurumlar da bunu qeyd edirlər. Xüsusilə, Dünya Səhiyyə Təşkilatı bizdə bu sahədə görülən işlərə yüksək qiymət vermişdir".

Səhiyyədə əldə olunan uğurlar dünyada iqtisadi böhranın hökm sürdüyü bir dövrdə ölkəmizdə həyata keçirilib. Ölkəmizin sosial-iqtisadi rifahı dövlət başçısının yorulmaz səyi nəticəsində reallaşmış və səhiyyə sahəsindəki inkişafın təminində əhəmiyyətli rol oynamışdır. 2018-ci ilin də səhiyyə sahəsində uğurlu olacağına şübhə yoxdur. Hazırda Qazax, Şəmkir, Naftalan, Goranboy, Füzuli, Quba rayon mərkəzi xəstəxanalarında təmir-tikinti işləri davam etdirilir. Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda, o cümlədən, Psixi-Sağlamlıq Mərkəzinin Uşaq Reabilitasiyası şöbəsində təmir işləri başa çatıb, hazırda müasir avadanlıq və inventarla təchiz olunmaqdadır. Dövlət proqramları da uğurla icra olunacaq.

Bu gün Azərbaycanda elə bir rayon, elə bir bölgə yoxdur ki, orada yeni xəstəxanalar, diaqnostika mərkəzləri açılmasın, müasir avadanlıqla təchiz olunmasın və insanların istifadəsinə verilməsin. Bütün bunlar Cənab Prezidentin səhiyyəyə qayğısının göstəricisidir.

*Nəzakət ƏLƏDDİNQIZI*




# "Azərbaycan aqrar elmi" jurnalının xüsusi buraxılışı akademik Həsən Əliyevə həsr olunub

***Azərbaycan elm xəzinəsinə dəyərli töhfələr vermiş görkəmli təbiətşünas alim və tanınmış ictimai-siyasi xadim, akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 7 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyi tərəfindən həyata keçirilən silsilə tədbirlər çərçivəsində nazirliyin "Azərbaycan aqrar elmi" jurnalının xüsusi buraxılışı nəşr edilib.***

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, nəfis şəkildə çap olunmuş "Azərbaycan aqrar elmi" jurnalının xüsusi buraxılışında Kənd Təsərrüfatı Nazirliyinin müəyyən etdiyi tədbirlər planına əsasən keçirilən akademik Həsən Əliyevin 110 illik yubileyinə həsr edilmiş konfrans və seminarlar, ağacəkmə kampaniyası, Azərbaycan Dövlət Aqrar Universitetində görkəmli alimin xatirəsinə həsr edilmiş yaşıllıq zonasının yaradılması və tanınmış ictimai-siyasi xadimin həyatı və elmi fəaliyyəti barədə dolğun materiallar dərc olunub.

# Pakistan mətbuatı: "Müqəddəs məscidləri dağıtmış təcavüzkar ölkə müsəlman ölkəsinin dostu ola bilməz"

Müqəddəs məscidləri dağıtmış təcavüzkar ölkə müsəlman ölkəsinin dostu ola bilməz. SİA-nın məlumatına görə, bu barədə Pakistanın Daily Times, National Courier, Election Times qəzetlərində və bu qəzetlərin elektron səhifələrində dərc olunmuş məqalədə bildirilir. Məqalədə yeni yaradılmış Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlığının Ermənistanı qəzəbləndirdiyi, Pakistan, Azərbaycan və Türkiyənin strateji tərəfdaş olduqları, bu üç ölkə arasındakı diplomatik münasibətlərin qarşılıqlı hörmətə, eyni zamanda tarixi, dini və siyasi ortaq cəhətlərə əsaslandığı qeyd olunur.

Həmçinin, bildirilir ki, diplomatik münasibətlər qurulandan bəri bu ölkələrin hökumətləri və siyasi rəhbərləri dostluq və qardaşlıq bağlarının daha da inkişafına və möhkəmləndirilməsinə çalışır: "Ermənistan terrorizmin qaynağı, Azərbaycana və Türkiyəyə qarşı etnik təmizləmə siyasəti həyata keçirmiş təcavüzkar ölkədir və onun ərsəyə gətirdiyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, eləcə də Ermənistanın özü Cənubi Qafqaz, həmçinin Avropa üçün potensial təhlükəsizlik təhdididir: "Ermənistanın vaxtı keçmiş və hazırda dünyada ən təhlükəli sənaye obyektlərindən olan Metsamor AES də Cənubi Qafqaz və Avropa İttifaqı üçün təhlükə olmağa davam edir. Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA), ABŞ və digər Qərb dövlətləri Metsamor AES-in yenidən işə salınmasına öz etirazlarını bildiriblər. Rəsmi Vaşinqton inanır ki, 407 meqavat gücündəki Metsamor reaktoru dünyada ən təhlükəli reaktorlardan biridir. Avropa İttifaqı da öz növbəsində AES-i bütün region üçün ciddi təhlükə hesab edir. Öz əhalisini qorumaq üçün region ölkələri olan Azərbaycan, Türkiyə və Gürcüstan da dəfələrlə Ermənistanı vaxtı keçmiş Metsamor AES-i dərhal bağlamağa çağırıblar. Bütün bunlara baxmayaraq, Ermənistan hələ də nüvə təhlükəsizliyinə ciddi əhəmiyyət vermir və bu, eyni zamanda, AEBA protokollarının da pozulmasını açıq göstərir".

Məqalədə vurğulanır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan hər zaman dialoqa hazır olsa da, Ermənistan özünün işğalçılıq siyasətinin nəticələrini möhkəmləndirməyə və qəbuledilməz və davamlı olmayan status-kvonu qoruyub saxlamaq üçün ardıcıl tədbirlər həyata keçirir: "İşğal olunmuş ərazilərdə hərbi təlimlərin, siyahıya almanın keçirilməsi, suriyalı ermənilərin həmin ərazilərdə məskunlaşdırılması, referendum və seçkilərin keçirilməsi beynəlxalq hüququn və atəşkəs sazişinin ciddi şəkildə pozulması deməkdir".

Müəllif qeyd edir ki, Azərbaycanın mülki əhalisinə və obyektlərinə qarşı Ermənistanın həyata keçirdiyi birbaşa və düşünülmüş hücumlar beynəlxalq humanitar hüququn və insan hüquqlarının, xüsusən də 1949-cu il Cenevrə Konvensiyaları və ona 1 saylı Əlavə Protokolun, Uşaq Hüquqları Konvensiyasının və İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi üzrə Konvensiyanın kobud şəkildə pozulmasıdır. Məqalədə diqqətə çatdırılır ki, Ermənistan qeyri-qanuni olaraq işğal olunmuş ərazilərin demoqrafik, mədəni və fiziki xarakterini dəyişir: "Ermənistanın mədəni dəyərlərə və irsə qarşı terrorçu fəaliyyəti hər kəsə məlumdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlanandan və Azərbaycan əraziləri işğal olunandan bəri ermənilər Azərbaycanın zəngin mədəni sərvətlərini talayıblar. Ermənistan məqsədyönlü şəkildə Azərbaycanın mədəni, irsi, müqəddəs və tarixi yerlərini, islam aləminə aid abidələrini məhv edir".

Müəllif xatırladır ki, BMT Təhlükəsizlik Şurası Ermənistanın işğal etdiyi Dağlıq Qarabağ və yeddi ətraf rayonu tərk etməsi ilə bağlı dörd qətnamə qəbul edib və beynəlxalq güclərin və təşkilatların ikili standartları səbəbindən bu günə qədər həmin qətnamələr yerinə yetirilməyib. Pakistanın münaqişəyə dair mövqeyi ilə bağlı məqalədə qeyd olunur ki, Pakistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü onun beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində tam dəstəkləyir: "Pakistan Ermənistan qoşunlarının işğal olunmuş bütün Azərbaycan ərazilərini dərhal, tam və qeyd-şərtsiz tərk etməsi ilə bağlı BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasının qətnamələrinin yerinə yetirilməsini daim tələb edir və beynəlxalq ictimaiyyəti və təşkilatları da Ermənistanı bu qətnamələrin icrasına vadar etməyə çağırır. Bu ölkə həmçinin, Azərbaycan Respublikasının Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll etmək istiqamətində göstərdiyi səylərin tərəfdarı kimi mütəmadi çıxış edir".


National Courier

Home | Front Page | Back Page | Metropolis | Business | Editorial | Cosmopolitan | Opinion | Lifestyle | Sports

RECENT POSTS

ATC allows Ex-MQM leader Saleem Shehzad to travel abroad

Sharifs Are Not 'Sharif', They Are Int'l 'Don:' Dr Asim

Air Marshal (Rt) Asghar Khan passes away

US frustrated at Pak behaviour: HR McMaster

## New Trilateral Azerbaijan-Pakistan-Turkey Cooperation (Part I)

Jan 4, 2018

Share | 21 | 0

Dr. Mehmood Ul Hassan Khan

Pakistan, Azerbaijan and Turkey are strategic partners. Diplomatic relations among Pakistan, Azerbaijan and Turkey are based on mutual respect, sharing unique commonalities of historical, religious and political nature. After the establishment of the formal diplomatic relations, there was no looking back and ties grew at a steady pace and the sky is the limit for their socio-economic integration, better political understanding and greater regional connectivity.

Müəllif yazır ki, Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi altında böyük sosial-iqtisadi inkişaf, geosiyasi sabitlik və geostrateji əhəmiyyət əldə edib: "Ermənistanın makro-iqtisadi inkişafı isə ölkədən kütləvi beyin axını ilə səciyyələnir. Azərbaycan hazırda Cənubi Qafqazın iqtisadi lideri və Xəzər hövzəsi regionunda da əhəmiyyətli iqtisadi aktordur".

Məqalədə vurğulanır ki, Azərbaycanın inkişafı və nailiyyətləri bütün müsəlman ölkələri üçün qürur mənbəyidir və eyni zamanda, Azərbaycan bir çox ölkələr üçün yaxşı idarəçilik nümunəsidir: "Azərbaycan Xalq Cümhuriyyəti müsəlman dünyasında ilk demokratik respublika olmuşdur. Onun əsas nailiyyətlərindən biri də qadınlara seçki hüququnun verilməsi idi ki, o dövrdə bir çox Avropa ölkələrində bu hüquq hələ mövcud deyildi. Lakin Ermənistan müasir dövrdə də öz vətəndaşlarının bir çox əsas insan hüquqlarını inkar edir və nəticədə ölkədə səfalət tüğyan edir, işsizlik, inflyasiya və borclanma yüksək səviyyədədir".

Pakistan-Azərbaycan-Türkiyə əlaqələrinə toxunan müəllif bu günlərdə üçtərəfli diplomatik münasibətlərin daha da intensiv hal aldığını bildirir və bu ölkələrin birgə bəyannamə imzalayaraq mövcud dinamik əlaqələrin daha da genişləndirilməsi və şaxələndirilməsi istiqamətində qərarlı olduqlarını qeyd edir: "Yeni Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlığının əsası 2017-ci il noyabrın 30-da Bakıda keçirilmiş xarici işlər nazirlərinin 1-ci görüşündə qoyulub. Bu üçtərəfli format ölkələrin ümumi mənfəətlərinə xidmət edəcək ortaq strategiyaların işlənib hazırlanması və layihələrin irəli sürülməsi üçün innovativ və əhəmiyyətli platforma rolunu oynayacaq".

Müəllif yeni yaradılmış Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlığından Ermənistanın xeyli qəzəbləndiyini və bu əməkdaşlığı bütün imkanları çərçivəsində pozmağa çalışdığını, hətta bəzən bəzi təcrübəsiz Pakistan mediasının nümayəndələrini də ələ almağa, Ermənistana maraq yaratmaq yönlü məqalələr dərc etməyə, Pakistan ictimaiyyətində Azərbaycan və Türkiyə haqqında yanlış rəy yaratmağa çalışdığını qeyd edir. Bəzən təcrübəsiz media nümayəndələrinin müsəlman ölkələrinə aid bəzi yemək adlarını Ermənistanın milli mətbəxinin nümunələri kimi qələmə verdiklərini, hətta Ermənistanın Böyük Ermənistan xülyaları altında Türkiyəyə qarşı ərazi iddialarını nəzərə almayaraq Ağrıdağı Ararat adı ilə verərək təcavüzkara əsas vermis olduqlarını, Türkiyənin Agrıdağını öz ərazisi kimi daim göstərən Ermənistanın bir daha beynəlxalq huququn bütün normalarını pozduğunu, Türkiyəyə qarşı Ermənistanın qaldırdığı soyqırım iddialarının da əsassız olduğunu və bu məsələnin tarixçilər tərəfindən araşdırılması təklifindən Ermənistanın hər vəchlə yayındığı məqalədə öz əksini tapır.

Ermənistanın Türkiyəyə qarşı soyqırım iddialarının siyasi xarakter daşıdığını, ermənilərin birinci dünya müharibəsi zamanı Türkiyə ərazisində, Anadoluda, 1918-ci ildə Bakıda, Azərbaycanın digər şəhərlərində, 1992-ci ildə Xocalıda törətdikləri soyqırım və vəhşilikləri dünya ictimaiyyətinə unutdurmağa çalışdıqları bildirilir. Müəllif bu media nümayəndələrinə və Ermənistanın cəhdlərinə cavab olaraq, Pakistan-Azərbaycan-Türkiyə əlaqələrinin qardaşlıq, yaxın dostluq və strateji tərəfdaşlıq əlaqələrinin olduğunu, qarşılıqlı inama, hörmətə, tarixi mənəvi dəyərlərə, adət-ənənələrə əsaslandığını və möhkəm tellərlə bağlandığını qeyd edir. İşğal olunmuş Azərbaycan torpaqlarında islam mədəniyyətinə aid müqəddəs məscidlərimizi, digər dini abidələrimizi dağıtmış Ermənistanın heç vaxt müsəlman ölkəsinin səmimi dostu olmayacağı vurğulanır.

# Azərbaycanın prokurorluq orqanları cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlər həyata keçirib



Yanvarın 5-də Baş Prokurorluqda 2017-ci ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib. AZƏRTAC xəbər verir ki, müşavirədə çıxış edən baş prokuror Zakir Qaralov xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiq qalan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi hərtərəfli düşünülmüş müdrik dövlət siyasəti və səriştəli idarəçiliyi nəticəsində 2017-ci ildə dünyada mövcud siyasi, iqtisadi böhranlara baxmayaraq, ölkə həyatının bütün sahələrində böyük irəliləyişlərə, müstəqil dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, vətənimizin iqtisadi qüdrətinin artırılması ilə nəticələnən möhtəşəm sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, həyata keçirilən ciddi və hərtərəfli iqtisadi islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı öz dayanıqlılığını saxlaya bilib, iqtisadi sabitlik təmin edilib, ölkəmizin gələcək inkişafı üçün perspektivlər açılıb.

Bildirilib ki, ötən il ölkəmizin hərtərəfli inkişafının parlaq gələcəyinə təminat verən qərarların qəbul edilməsi, regionda sabitliyə, xalqımızın firavanlığına və iqtisadi inkişafa böyük töhfə verəcək, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istismara verilməsi, "Azəri-Çıraq-Günəşli" yataqları üzrə yeni sazişin imzalanması ilə "Əsrin müqaviləsi"nin müddətinin uzadılması, ölkəmizdə "İslam Həmrəyliyi İli"nin elan edilməsi, paytaxt Bakının və respublikamızın digər guşələrinin ideal məkan sayılaraq mötəbər beynəlxalq iqtisadi, humanitar forumlara, dünya miqyaslı idman yarışlarına - Formula-1 Azərbaycan Qran-Prisinə, IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsi və bütövlükdə mövcud ictimai-siyasi sabitliyin qorunması, əhalinin güzəranının yaxşılaşdırılması, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, struktur və institusional islahatların sürətləndirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi kimi mühüm hadisələrlə yadda qalıb. Müşavirədə ötən il ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisənin - Azərbaycanın mədəniyyətinin təbliğinə, xalqlar arasında mədəni əlaqələrin daha da genişləndirilməsinə, milli irsin, milli özünüdərkin və azərbaycançılıq ideyalarının qorunmasına əvəzsiz töhfələr verən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyinatı xüsusi vurğulanıb.

Qeyd olunub ki, 2017-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində məqsədyönlü xarici siyasət tədbirləri davam etdirilməklə yanaşı, Milli Ordunun daha da gücləndirilməsi, müasir ordu quruculuğu məqsədlərinə xidmət edən zəruri infrastrukturun yaradılması istiqamətində böyük işlər görülüb. Xalqımızın və dövlətimizin tarixində çox əlamətdar hadisələrdən biri olan işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində yeni qəsəbənin açılışı doğma yurdlarından didərgin düşmüş məcburi köçkünlərimizin əzəli torpaqlarımıza qayıtma əzmini daha da artırıb.

Diqqətə çatdırılıb ki, 2017-ci il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu hesabat dövrü olub. Digər hüquq mühafizə orqanları, ilk növbədə, ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində Daxili İşlər Nazirliyi ilə əlaqəli şəkildə zəruri tədbirlərin görülməsi təmin olunub. Prokurorluq orqanlarının səyləri, ilk növbədə, Prezident İlham Əliyevin rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, prokurorluqda islahatların yeni məzmunda davam etdirilməsinə, "Prokurorluq haqqında" Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılmasına, mövcud çatışmazlıqların və mənfi təzahürlərin təxirəsalınmadan aradan qaldırılmasına yönəldilib.

Xüsusi vurğulanıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradə, əzm və qətiyyəti hesabına yeni müstəvidə reallaşdırılan dövlətçilik siyasətinin məntiqi nəticəsi kimi prokurorluq orqanlarının ölkəmizdə korrupsiyaya və rüşvətxorluğa qarşı kəsərli mübarizəsi ötən dövrlərdə olduğu kimi, 2017-ci ildə də uğurla davam etdirilib.

Hesabat dövründə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi tərəfindən respublikada ictimai rezonansa səbəb olan bir sıra cinayətlərin, o cümlədən qəsdən adam öldürmə cinayətlərinin keyfiyyətli istintaq edilməsi və bütün təqsirli şəxslərin ifşa olunaraq məhkəmə məsuliyyətinə verilməsi ilə yanaşı, cinayəti doğuran səbəb və şəraitlərin aşkarlanaraq qabaqlayıcı və profilaktiki tədbirlərin görülməsi təmin edilib. Prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, bütün struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkarlanan nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması ötən il də əsas vəzifələrdən biri kimi diqqət mərkəzində saxlanılıb. Əməliyyat müşavirəsində prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsinin yüksəldilməsi, "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" İnformasiya proqramlarının tam fəaliyyət göstərməsi, bu sahədə həyata keçirilən işin səmərəliliyinin artırılması barədə konkret tapşırıqlar verilib. Həmçinin prokurorluğun fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil olunub, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində, cinayətkar hərəkətlər nəticəsində hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilində yol verilən çatışmazlıqların qısa müddətdə aradan qaldırılması üçün konkret tapşırıqlar verilib. Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə 2017-ci ilin nəticələrinə görə artım müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda, cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilmələri üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılıb.

Qeyd edilib ki, hesabat dövründə prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlər görülüb. Xüsusi vurğulanıb ki, dövlətimizin başçısının tapşırıq və tövsiyələrinə müvafiq olaraq, baş prokuror tərəfindən respublikanın müxtəlif bölgələrində prokurorluğun rəhbər işçilərinin iştirakı ilə vətəndaşların qəbulu keçirilib. Qəbullarda qaldırılan məsələlərin yerindəcə həll edilməsi və əsaslı müraciətlərin təmin olunması istiqamətində hərtərəfli tədbirlər görülüb.

Müşavirədə baş prokurorun birinci müavini Rüstəm Usubov hesabat ilində cinayətkarlığa qarşı mübarizə, istintaq işinin və ibtidai araşdırmaya prosessual rəhbərliyin təşkili sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr, baş prokurorun müavini Namiq Əsgərov "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli Qanununun qəbulu ilə bağlı prokurorluq orqanlarının qarşısında duran vəzifələrin vaxtında və səmərəli icrasının təmin olunması, Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin rəisi Müqəddəs Sultanov Baş Prokurorluğun 2017-ci ilin iş planının icra vəziyyəti və cari ilin birinci yarımili üçün iş planı barədə ətraflı məlumat veriblər.

Baş Prokurorluğun əlaqədar struktur qurumlarına baş vermə müddətindən asılı olmayaraq, əvvəlki illərdə törədilən və bağlı qalan qəsdən adam öldürmə cinayətlərinin açılması üçün zəruri tədbirlərin görülməsi, daxili işlər orqanları ilə qarşılıqlı əlaqədə konkret hadisələr üzrə istintaq və əməliyyat-axtarış işlərinin real vəziyyətinin öyrənilməsi yolu ilə onların intensivliyinin artırılması, səlahiyyət dairəsində olan bütün imkanlardan istifadə edilərək təqsirkar şəxslərin müəyyənləşdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

Əməliyyat müşavirəsində hesabat dövründə görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil və ciddi tənqid olunub. Habelə istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi zamanı yol verilən nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunub.

Baş Prokurorluğun aidiyyəti struktur qurumlarının rəhbərlərindən tələb edilib ki, əməkdaşların fəaliyyətlərində aşkarlanan mənfi təzahürlərə qarşı mübarizə qətiyyətlə davam etdirilsin, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi məsələlərində prinsipiallıq daha da artırılsın. Eyni zamanda, 2017-ci il ərzində görülmüş işlərin vəziyyətinin ümumiləşdirilməsi və nəticələrin Baş Prokurorluğun idarə və şöbələrində müzakirə olunması, habelə Baş Prokurorluğun geniş kollegiya iclasının keçirilməsinə hazırlıqla əlaqədar müvafiq tapşırıqlar verilib.

Əməliyyat müşavirəsinə yekun vuran baş prokuror Zakir Qaralov ümidvar olduğunu bildirib ki, 2018-ci ildə də Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlərin reallaşdırılmasında, digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının və ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunmasında öz səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcək.

# Azərbaycanın istiqlal yolunun zirvəsi

## *20 Yanvar faciəsinin 28-ci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiqlənib*

***Azərbaycan xalqının qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsindən 28 il ötür. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet ordusunun hərbi hissələri Bakı şəhərində müstəqil dövlət yaratmaq və öz suverenliyini əldə etmək üçün ayağa qalxan dinc əhaliyə qarşı misli görünməmiş qətliam törədib. Xalqımıza qarşı törədilmiş bu qanlı cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli terror aktıdır. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi.***

Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq və insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola bilmədi və milli qürurumuzu qıra bilmədi. Xalqa qarşı törədilən bu cinayət Sovet imperiyasının iç üzünü bariz bir şəkildə ortaya çıxartdı. Əslində, imperiyanın Bakıda bu qanlı hadisəni törətməklə İttifaqa üzv olan digər respublikalara gözdağı vermək planı və imperyanı zor gücünə mühafizə etmək təşəbbüsü də boşa çıxmış oldu.

Azərbaycanda günahsız insanların güllələbaran edilməsi əməliyyatı SSRİ Müdafiə Nazirliyi, DİN xüsusi təyinatları və SSRİ DTK-nın "A" təxribat qrupları tərəfindən təşkil olunmuşdu. Bu faciəni törədənlər Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyü və suverenlik uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi.

SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji blokunu partladtı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. M.Qorbaçovun fərmanı ilə paytaxtımızda fövqəladə vəziyyət elan olundu. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərdən çox idi. 1990-cı ilin yanvarında Sovet qoşunlarının Bakıda həyata keçirdikləri qırğınlarda 131 nəfər öldürülmüş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın və uşaq var idi.




### XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEV 1990-CI İL 21 YANVAR TARİXLİ BƏYANATI İLƏ FACİƏYƏ İLK SİYASİ QİYMƏTİ VERDİ

20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifə olsa da, bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Xalq o günlərdə böyük bir həqiqəti - həqiqi liderin meydanda olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş gündə Ulu Öndər Heydər Əliyev xalqının səsinə hər kəsdən əvvəl səs verdi. Ümummilli Lider Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də ailəsi ilə birlikdə ölkəmizin Moskvadakı Daimi Nümayəndəliyinə gəldi, təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.S.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Ulu Öndər Heydər Əliyev bununla, hər şeydən əvvəl, Vətən, xalq qarşısında vətəndaşlıq və milli mövqeyini nümayiş etdirdi. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi.

Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. 1990-cı il noyabrın 21-də Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etdi. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli Fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclisdə müzakirələrin yekunu olaraq, 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi. Qərarda 1990-cı ilin Qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli Fərmanında deyilirdi: "Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".

### ŞƏHİDLƏR XİYABANI XALQIMIZIN MÜQƏDDƏS AND YERİNƏ VƏ ZİYARƏTGAHINA ÇEVRİLDİ

Ümummilli Lider Heydər Əliyev 20 Yanvar hadisələri zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində də bir sıra mühüm tədbirlər həyata keçirdi. Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra, ilk olaraq, Şəhidlər Xiyabanını ziyarət etdi və tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarlarının üstü götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz Ulu Öndərin Sərəncamı ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan olundu.

Bakıda Vətən şəhidlərinə böyük ehtiramla xatirə kompleksi ucaldıldı. Şəhidlər Xiyabanı xalqımızın müqəddəs and yerinə və ziyarətgahına çevrildi.

Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev də müharibə veteranlarının, şəhid ailələrinin və əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətində böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin və əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha qabarıq göstərir. Dövlət başçısının Şəhidlər Xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı Sərəncamı Vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsinə çevrildi. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Şəhidlər Xiyabanı Vahid Kompleks kimi yüksək səviyyədə yenidən quruldu və abadlaşdırıldı. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun "20 Yanvar" stansiyasının üzərindəki dairədə Xatirə-Kompleksinin yaradılması oldu. Prezident İlham Əliyevin tapşırığı ilə Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində Memorial Abidə-Kompleksi yaradıldı. Kompleksin üzərində 20 Yanvar faciəsi zamanı həlak olmuş 147 nəfərin adı və soyadı qızılı hərflərlə həkk olunub.

Bakının ən mötəşəm məkanında Vətən uğrunda canlarını qurban vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər Xiyabanı xalqımız üçün müqəddəs bir and yerinə və milli iradəmizin şanlı-şərəfli bir salnaməsinə çevrilib. Şəhidlərimiz və Şəhidlər Xiyabanı azadlığımızın, müstəqilliyimizin və milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillərə də bir qürur mənbəyi olacaqdır.

Bu gün xalqımız 20 Yanvar hadisələrinin 28-ci ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır və onların əziz xatirəsini böyük ehtiramla yad edir.

Qeyd edək ki, 20 Yanvar faciəsinin 28-ci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiqlənib. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi səkkizinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib. Sənədə əsasən, respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlərin keçirilməsi, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların, bədii və sənədli filmlərin nümayiş etdirilməsi nəzərdə tutulur.

Tədbirlər planında, həmçinin, dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də, televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması və yayılmasının təmin olunması barədə tapşırıqlar verilib.

Hər il olduğu kimi, bu il də respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər Xiyabanı ərazisində lazımi işlər aparılacaq. Sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər Xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin iyirmi səkkizinci ildönümü ilə əlaqədar, hüzn əlaməti olaraq, dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.

Vətənimizin müstəqilliyi, azadlığı uğrunda canlarını qurban verən mərd oğul və qızlarımızın əziz xatirələri qəlbimizdə həmişə yaşayacaq. 20 Yanvar faciəsi istiqlaliyyətə can atan xalqımızın mübarizliyini, qəhrəmanlığını, qorxmazlığını və cəsarətini nümayiş etdirdi. Xalqın qanı bahasına qazanılmış müstəqillik əbədi və daimidir. Şəhidlər ölməzdir! Onlar Azərbaycan xalqının Azadlıq Hərəkatı Tarixini öz qanları ilə yazan ilk qaranquşlardır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Özbəkistanın review.uz portalı Azərbaycan nefti və əfsanəvi Neft Daşları haqqında material yerləşdirib

***Daşkənddəki review.uz portalı Azərbaycan nefti və əfsanəvi Neft Daşları haqqında rus dilində geniş material yerləşdirib. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan neftinin və Neft Daşlarının tarixindən söhbət açılır, bildirilir ki, hələ 19-cu əsrdə ərəb tarixçisi, coğrafiyaşünası və səyyahı Əhməd əl-Belaruri yazıb ki, Abşeronun iqtisadi həyatı hələ qədim zamanlardan neftlə bağlı olub.***

Balaxanıdakı quyulardan birinin üzərindəki daşda aşkar edilən yazıda bildirilir ki, bu quyu 1594-cü ildə usta Allahyar Məmmədnur oğlu tərəfindən qazılıb. İran tarixçisi Əmin Əhməd Razi isə yazır ki, 16-cı əsrdə Bakı ətrafında təxminən 50 neft quyusu olub.

Sonra materialda neftin sənaye üsulu ilə qazılması haqqında məlumat verilir. Bildirilir ki, bu tarix bir neçə mərhələyə bölünür. Neftin mexaniki üsulla çıxarılması birinci mərhələ aiddir və 1847-ci ildən 1920-ci ilə qədər olan dövrü əhatə edir. Məlumat verilir ki,


НЕФТЯНЫЕ КАМНИ НА КАСПИИ – ЧУДО ТЕХНИЧЕСКОЙ МЫСЛИ

Автор Review.uz | 02.01.2018 13:06

Оцените материал (2 голосов)

**Исторические корни азербайджанской нефти уходят в глубокую древность. Ещё в XIX веке арабский историк, географ и путешественник Ахмед Аль-Беларури указывал, что экономическая жизнь на Апшероне с древнейших времён была связана с нефтью.**

Надпись на камне, обнаруженная в одной из скважин в Балахане свидетельствует о том, что эта скважена была пробурена ещё в 1594 году мастером Аллахьяром Мамеднур оглу. По свидетельству Амина Ахмеда Рази (Иран 1601) к началу XVI века вокруг Баку существовало около 50 таких нефтяных ям и скважин, где добывались как «чёрная», так и «белая» нефть. В 1803 году житель Баку Касумбек Мансурбеков пробурил

1859-cu ildə Bakıda ilk neft emalı zavodu tikilir və 1867-ci ildə 15 neft emalı dəzgahı fəaliyyət göstərib.

Yazıda Bakıdakı neft milyonçuları Hacı Zeynalabdin Tağıyev, İsa bəy Hacınski, Murtuza Muxtarov, Şəmsi Əsədullayev və digərlərinin bu sahədəki fəaliyyəti haqqında da məlumat verilir, bildirilir ki, 1874-cü ildə "Bakı Neft Cəmiyyəti" təsis edilib. 1873-cü ildə isə Robert Nobel Bakıya gəlir və Nobel qardaşları neftin çıxarılması və emalı ilə bağlı şirkət yaradırlar.

Dənizdə neft hasilatını həyata keçirmək məqsədilə 1949-cu ildə Neft Daşlarının təməli qoyulub, burada buruqlarla yanaşı neftçilərin yaşaması üçün qəsəbə də salınıb, Neft Daşları Ginnesin Rekordlar Kitabına düşüb. Vurğulanır ki, 1969-cu ildən başlayaraq ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkə iqtisadiyyatının neft və qaz sahəsi güclü inkişaf yolu keçib. Materialda müasir Azərbaycanın neft strategiyası haqqında ətraflı məlumat verilir, "Əsrin müqaviləsi" haqqında danışılır. Bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti nəticəsində ölkənin neft strategiyası yeni mərhələyə qədəm qoyub və bu istiqamətdə işlər davam etdirilir.

***Qulu Kəngərli***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Daşkənd***

# Səhiyyə naziri Zərdabda vətəndaşları qəbul edib



Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həllinə kömək göstərirlər. Növbəti belə qəbul yanvarın 5-də Zərdab Mərkəzi Rayon Xəstəxanasında keçirilib. Səhiyyə Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbul zamanı nazir Oqtay Şirəliyev Zərdab, Ağsu, Ucar, Ağdaş və Kürdəmir sakinlərinin sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib.

Vətəndaş müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Müraciətlərin bəziləri yerindəcə həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

# "Aqroparkların yaradılması kənd təsərrüfatında məhsuldarlığı daha da artıracaq"

"Son illərdə regionlarda müasir təsərrüfat subyektlərinin yaradılması ölkəmizdə aqrar sektorun yeni yanaşmalar əsasında inkişaf etdirilməsinə yaxşı nümunədir". Bu fikri Milli Məclisin deputatı Eldəniz Səlimov deyib.

E.Səlimov bildirib ki, hazırda iri fermer təsərrüfatlarının yaradılması uğurla həyata keçirilir. İndiyədək dövlət başçısının tapşırığına uyğun olaraq ölkəmizin 20 rayonunda 44 min hektardan çox sahədə 22 sahibkarlıq subyekti tərəfindən 32 iri fermer təsərrüfatı yaradılıb.

"Regionlarda istixanaların salınması da çox geniş vüsət alıb. Hazırda 400 hektardan çox sahədə yeni, müasir istixana kompleksləri yaradılır. Artıq bir sıra bölgələrdə fəaliyyətə başlayan istixanalarda yüksək məhsuldarlığa nail olunur. Ölkəmizdə Prezident İlham Əliyevin aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq həmçinin aqroparkların yaradılmasına başlanılıb. İndiyədək regionlarda 10 min hektar ərazidə 2 aqropark yaradılıb. Perspektivdə Azərbaycanın bölgələrində aqroparkların sayı daha da artacaq. Hazırda ölkə ərazisində aqroparkların yaradılması güclü şəkildə təşviq olunur. Yeni yaradılan aqroparklar həm bitkiçilik, həm də heyvandarlıq istiqamətlidir. Bu aqroparklarda 10 min yeni iş yerinin açılması nəzərdə tutulur. Görülən bu işlər aqrar sahənin dinamik inkişafında mühüm rol oynayır"-deyə, E.Səlimov qeyd edib.

# Bakıda Qoşulmama Hərəkatı Xarici İşlər Nazirlərinin toplantısı keçiriləcək



2018-ci ilin aprelində Bakıda Qoşulmama Hərəkatı Xarici İşlər Nazirlərinin toplantısı keçiriləcək. AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev 2017-ci ilin yekunlarına dair keçirilən mətbuat konfransında deyib. O bildirib ki, Azərbaycan 2019-2022-ci ildə Qoşulmama Hərəkatına ev sahibliyi edəcək. Bu hərəkatda 120-dən çox dövlət iştirak edir. Qoşulmamaq Hərəkatının Sammiti isə 2019-cu ildə Azərbaycanda keçiriləcək.

# Reyhan Camalova "ASAN xidmət"in İdeya müvəkkili oldu

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov Hindistanda keçirilən Qlobal Sahibkarlıq Sammitində yağış suyundan enerji alınmasına imkan verən "Rainenergy" qurğusu ilə Azərbaycanı təmsil etmiş Reyhan Camalova ilə görüşüb. Dövlət Agentliyinin informasiya təminatı şöbəsindən SİA-ya verilən xəbərə görə, görüş zamanı məktəb və universitetlərdə innovasiyaların təşviqi, ideyaların toplanılması və



gənclərin, xüsusilə məktəblilərin bu prosesə cəlb edilməsi istiqamətində işlərə dair müzakirələr aparılıb. Həmçinin Reyhan Camalova gənc innovativ məktəbli kimi Dövlət Agentliyinin İdeya müvəkkili vəzifəsinə təyin edilib. Belə ki, ona 2 il ərzində Dövlət Agentliyində ictimai əsaslarla fəaliyyət göstərməsi, innovativ ideyaları olan istedadlı gənclərin layihələrini üzə çıxarması və reallaşdırmasına dəstək göstərməsi üçün xidməti vəsiqə təqdim edilib.

***Nailə Məhərrəmova***

# Müasir turizm infrastrukturu Azərbaycana turist axınını gücləndirir

***Müstəqilliyini bərpa etdikdən sonra yeni ictimai-iqtisadi inkişaf yoluna qədəm qoyan, açıq bazar iqtisadiyyatı sisteminin tələbləri əsasında inkişaf edən Azərbaycan beynəlxalq aləmə inteqrasiya prosesləri çərçivəsində dünya dövlətləri ilə iqtisadi əlaqələrini genişləndirir. Ölkəmizdə bu əlaqələrin bir qolu olan beynəlxalq turizm münasibətlərinin inkişafı istiqamətində də təqdirəlayiq işlər görülmüşdür. Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Dünya təcrübəsi göstərir ki, turizm inkişaf etmiş regionlarda dövlət və əhali gəlirlərinin 30%-ə qədəri turizm fəaliyyəti ilə bağlıdır.***



Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi istiqamətində əldə olunan irəliləyişlər bu gün ölkəmizi dünyada tanıda bilib.

## ÖLKƏMİZİN BEYNƏLXALQ TURİZM BAZARINA İNTEQRASİYASI MİLLİ TURİZMİN RƏQABƏTƏ DAVAMLILIĞINI YÜKSƏLDİB

Turizmin inkişafına dair dövlət proqramları ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsi və turizm sahəsinin daha da inkişafını təmin etmiş oldu. Ölkəmizdə turizmin inkişafına münbit şərait yaradıldı, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyuldu və milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəldi. Azərbaycanın turizm imkanları dünyada tanıdılır. Hər bir regionun milli koloriti təbliğ olunur. Xarici dövlətlərdə Azərbaycanın müxtəlif və zəngin folkloru, mətbəxi və ənənələri ilə yaxından tanış olurlar. Ölkəmizdə turizmin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyi mərhələdə Azərbaycan turistlər üçün cəlbedici məkan olaraq diqqətdədir.

Azərbaycanın son illər bir sıra beynəlxalq mədəni-kütləvi tədbirlərə ev sahibliyi etməsi də, buraya xaricdən istirahətə gələnlərin sayını dəfələrlə artırıb. Qonaqlar tədbirlərdə iştirak etməklə yanaşı, ölkənin müxtəlif məkanlarındakı müasir turizm obyektlərində dincəlir, tarixi abidələri ilə tanış olur və əsrarəngiz təbiətini seyr edirlər.

Ölkəmizdə yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması, mövsümlük anlayışını aradan qaldırmaqla, davamlı turizmə nail olmağa şərait yaratdı. Belə ki, turizm sahəsində məqsədli şəkildə həyata keçirilən layihələr qış turizminin inkişafına da yeni yollar açdı. "Şahdağ" Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirib çıxardı. Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə "Şahdağ" Milli Parkının ərazisində yerləşən "Şahdağ" Qış-Yay Turizm Kompleksi müasir tələblərə cavab verir. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, "Şahdağ" Qış-Yay Turizm Kompleksinə çəkilən avtomobil yolu genişləndirilmiş, yeni körpülər salınmış, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilmiş və digər müvafiq işlər görülmüşdür. Kompleksin ərazisi ekoloji təmizliyi, flora və faunasının zənginliyi ilə seçilir. Turizm obyekti dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdədir. Turizm kompleksinin əsas hissəsi isə, dəniz səviyyəsindən 1440-1640 metr yüksəklikdəki yaylaqda yerləşir. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən biri olan "Şahdağ" Qış-Yay Turizm Kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir. Bu layihənin reallaşdırılması respublikamızda dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açmışdır.

Azərbaycan tarixində ilk dağxizək kurortu olan "Şahdağ" Qış-Yay Turizm Kompleksinə daxil olan "Qaya" və "Zirvə" mehmanxanalarının açılışı turistlərin istirahətinə geniş imkanlar açdı. "Zirvə" otelində - 40 nömrə, personal üçün 3 otaq, restoranlar, bar, kafe, pab, bilyard zalı, mağazalar, konfrans zalı, xizək avadanlıqlarının icarəsi, xizək məktəbi, tibb məntəqəsi, avtomobil dayanacağı və sair obyektlər mövcuddur. "Qaya" otelində isə 62 nəfər turistin yaşayışı üçün nəzərdə tutulan 26 nömrə, fitnes klubu, restoran, bar, kafe və sair obyektlər mövcuddur. Kompleksdə xizək enişlərinə qalxmaq üçün 4 ədəd asma kanat yolu və xüsusi olaraq, kiçik yaşlı xizək sürənlər üçün xalı yolu mövcuddur. Kompleksdə olan kanat yolları müxtəlifdirlər - kürsülü, buqelli və gələcəkdə isə qondolalı kanat yolları da quraşdırılacaqdır. Bütün eniş zolaqlarında süni qarın hazırlanması üçün generatorlar xidmət göstərir.

## "ŞAHDAĞ" TURİZM MƏRKƏZİNİ 16 MİNDƏN ÇOX TURİST ZİYARƏT EDİB

Artıq 6-cı mövsümdür ki, "Şahdağ" Turizm Mərkəzində bu il Yeni il tətilini tam fərqli abu-havada qarşılamaq istəyənlər üçün xüsusi bayram şənlikləri təşkil olunub. Bayram tətilini əsl qış mühitində, qarlı dağların əhatəsində və təmiz dağ havasında keçirmək istəyənlər üçün isə, Şahdağ ideal məkan olduğundan, buraya üz tutan turistlərin sayı ilbəil durmadan artır. Yeni il tədbirləri qonaqlara əsl bayram əhval-ruhiyyəsi yaşadaraq, onlarda maraqlı və unudulmaz təəssüratlar yaradıb. Bayram ərəfəsində mərkəzi 16000-dən çox turist ziyarət edib. Onlardan 40 %-dən çoxu, məhz xizək sürmək üçün mərkəzə üz tutan xizək həvəskarları olmuşdur.

Yeni il bayramı günlərində ötən illə müqayisədə xaricə gedən azərbaycanlıların sayı azalıb, Azərbaycana gələn turistlərin sayı isə artıb. Azərbaycan vətəndaşlarının çoxu ölkəmizin regionlarında - Quba, Qusar, Qəbələ və Lənkəranda istirahət ediblər.

## 2018-Cİ İLDƏ LƏNKƏRANDA İKİ BÖYÜK OTEL TURİSTLƏRİN İXTİYARINA VERİLƏCƏK

Ölkəmizin səfalı yerlərindən olan Lənkərana builki qış mövsümünün əvvəli maraq göstərənlərin sayı az olmayıb. Bayram günlərində xaricdən Azərbaycana daha çox maraq göstərən turistlərin sayı çoxalıb. Ölkəmizə daha çox ərəb ölkələrindən, Rusiya, Ukrayna və Qazaxıstandan turist gəlib. Lənkəran 4-5 ay turizm mövsümü sayılırdısa, indi ilin bütün aylarında burada turist axını olur. 2017-ci ildə rayona gələn 30 minə yaxın turistin 20 faizini xarici turistlər təşkil edib. Turistlərin say çoxluğu nəzərə alınaraq, Lənkəranda iki böyük otel inşa olunur. Bu otel komplekslərindən biri, məhz dağlıq ərazidə yerləşir. Burada qış turizmi üçün hər cür şərait yaradılır. 2018-ci ildə bu istirahət mərkəzləri turistlərin ixtiyarına veriləcək.

Ələt-Astara Beynəlxalq Avtomobil Yolu və Lənkəran Beynəlxalq Aeroportunda aviareyslərin sayının artırılması rayonda qış turizmini inkişaf etdirmək üçün real imkanlar açır.

Bu il ölkəmizin cənub bölgəsi "Cənub rekreasiya zonası" elan olunacaq. Bu isə, öz növbəsində, bölgədə turizm sektorunun inkişafına böyük töhfə verəcək. Artıq bu məqsədlə ekstremal və qış turizmi üçün əlverişli ərazilər də müəyyən edilib. Azərbaycanın qonaqpərvərliyi, tolerantlığı, turizm infrastrukturunun yaradılması və yeni otellərin inşası turistləri cəlb edir. Digər amillərindən biri də, məhz ölkədə hökm sürən ictimai-siyasi sabitlikdir. Bu baxımdan, Azərbaycana gələcək turistlərin sayının artacağı şübhə doğurmur. Azərbaycan saysız turistləri qarşılamaq və lazımi səviyyədə yerləşdirmək imkanına malik olan turist ölkəsidir.

**ZÜMRÜD**

# Yeni nəşrlər

*"Molla Pənah Vaqif" biblioqrafiyası*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" 2017-ci il 15 yanvar tarixli Sərəncamına uyğun olaraq, Azərbaycan Milli Kitabxanası "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Molla Pənah Vaqif" adlı 438 səhifədən ibarət biblioqrafiya hazırlayaraq çap etmişdir.***




M.P.Vaqifin adının YUNESKOnun 2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş bu qüdrətli söz ustadının yaradıcılığındakı humanist dəyərlərə verilən yüksək qiymətin təzahürüdür.

XVIII əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, şair, mütəfəkkir, ictimai-siyasi xadim M.P.Vaqif haqqında hazırlanmış bu göstərici, şair haqqında işıq üzü görən ilk biblioqrafiyadır. Biblioqrafik göstərici şairin ədəbi və ictimai fəaliyyətini əks etdirən 1856-2017-ci illərdə dərc olunmuş materiallar əsasında tərtib edilmişdir.

"Molla Pənah Vaqif" biblioqrafiyası" 5 hissədən - "Əsərləri". "Həyat və yaradıcılığı haqqında", "Rus dilində", "Digər dillərdə" və "Köməkçi göstərici"dən ibarətdir.

Vəsaitdə yer alan bölmələrdə və yarımbölmələrdə materiallar xronoloji ardıcıllıqla, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır. Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə sonda köməkçi göstəricilər tərtib edilmişdir.

"Molla Pənah Vaqif" biblioqrafiyasını tərtib edənlər Milli Kitabxananın əməkdaşları Mədinə Vəliyeva, Mətanət İbrahimova və Gülbahar Misirova, elmi redaktoru professor, əməkdar mədəniyyət işçisi Kərim Tahirov, redaktoru əməkdar mədəniyyət işçisi Gülbəniz Səfərəliyevadır. "Molla Pənah Vaqif" biblioqrafiyası hazırlanarkən arxiv materiallarından və Milli Kitabxananın zəngin fondundan istifadə edilmişdir.

Biblioqrafiyada ön söz əvəzi akademik Nizami Cəfərovun "Xalqın böyük şairi" məqaləsi çap olunmuşdur. Kitab ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının Molla Pənah Vaqifin 300 illik yubileyi ilə əlaqədar tərtib edərək çap etdirdiyi bu biblioqrafiya şairə və bütövlükdə, Azərbaycan mədəniyyətinə ən layiqli ərməğandır.

***Ədilə Qocayeva, AJB-nin üzvü***

# Şahbuzda mədəniyyət evi tikilir

*Şahbuz rayonunda inşa olunan mədəniyyət evində və çirkab sutəmizləyici qurğuda tikinti işləri davam etdirilir. AZƏRTAC xəbər verir ki, Şahbuz şəhərində yeni inşa olunan mədəniyyət evində tikinti işlərinə 2017-ci ilin sentyabr ayından başlanılıb. Hazırda binanın ikinci mərtəbəsində beton-qəlib işləri görülür.*



Bina iki mərtəbədən ibarət olacaq. Burada rayon mədəniyyət və turizm şöbəsinin əməkdaşları üçün iş otaqları, bufet, dekorasiya və məşq otaqları, 280 yerlik tamaşa zalı yaradılacaq.

Şahbuz şəhərinin "Ömərdərəsi" massivində inşa olunan çirkab sutəmizləyici qurğuda isə inşaat işlərinə ötən ilin may ayının əvvəllərindən başlanılıb. İnşaat işlərinin əksər hissəsi görülüb. Yaxın günlərdə isə inzibati binanın tikintisinə start veriləcək. İnşaat işləri başa çatdıqdan sonra burada Almaniya istehsalı olan son texnoloji avadanlıqlar qurulacaq. Qurğu istifadəyə verildikdən sonra gündəlik 2 min 800 kubmetr çirkli su təmizlənərək təsərrüfat üçün yararlı vəziyyətə gətiriləcək. Qurğunun tikintisi "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi" çərçivəsində həyata keçirilir. Layihə çərçivəsində Şahbuz şəhərinin kanalizasiya sistemi də yenilənib, Şahbuz şəhəri, Daylaqlı və Kiçikoba kəndlərinə yeni su xətləri çəkilərək, sakinlər Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin olunub. Qeyd edək ki, hər iki tikintinin 2018-ci ildə başa çatdırılması nəzərdə tutulub.

# Moldova BMT Baş Assambleyasının növbəti iclasında GUAM məkanındakı münaqişələrlə bağlı qətnamə irəli sürəcək




Moldova Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat - GUAM-ın 2018-ci il üzrə fəaliyyətdə olan sədri kimi "GUAM məkanındakı uzunsürən münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün nəticələri barədə" birgə qətnaməsini BMT-nin Baş Assambleyasının növbəti iclasında irəli sürəcək. Trend-in məlumatına görə, bu barədə Moldovanın Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyi 2018-ci il üçün ölkənin GUAM sədrliyi ilə bağlı bəyanatında bildirib.

Bəyanatda deyilir ki, həmçinin Moldova GUAM Azad Ticarət Zonasının fəaliyyətini təmin etməyə və təşkilatın investisiyaya açıq bir platformaya çevrilməsinə çalışacaq.

İqtisadi prioritetlər çərçivəsində, Moldova iqtisadiyyat, nəqliyyat, energetika, enerji təhlükəsizliyi, turizm sahələrində GUAM-ın sahələr üzrə əməkdaşlığın gücləndirilməsi üzrə Fəaliyyət Planı əsasında əsas sahələr üzrə qarşılıqlı əlaqələri aktivləşdirməyə, GUAM-ın nəqliyyat və tranzit potensialını artırmağa, habelə GUAM nəqliyyat dəhlizinin inkişaf konsepsiyasını həyata keçirmək üzrə müvafiq Fəaliyyət Planını hazırlamağa çalışacaq.

Moldova həmçinin GUAM + formatında, xüsusilə də Avropa İttifaqı və ATƏT ilə beynəlxalq əməkdaşlığı gücləndirmək və genişləndirmək, "ənənəvi" tərəfdaşlar - ABŞ, Yaponiya və Vişeqrad qrupu ilə konstruktiv dialoqun təşviqini davam etdirəcək. GUAM da sədrlik Moldovaya yanvarın 1-dən keçib.

# İctimai nəqliyyatda tütündən istifadə məhdudlaşdırılır



"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunun 10-cu maddəsinin 1.12-ci bəndinə əsasən, müntəzəm şəhərdaxili avtobuslar və taksi minik avtomobilləri tütündən istifadənin məhdudlaşdırıldığı yerlərdən biri kimi müəyyən edilib. Qanunun tələbinin qısa vaxtda icrasının təmin edilməsi ilə bağlı daşıyıcılara göstəriş verilib. Bu barədə SİA-ya Bakı Nəqliyyat Agentliyindən (BNA) məlumat verilib. Bildirilir ki, BNA-da müntəzəm sərnişindaşıma və taksi fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərlə görüş keçirilib. Görüşdə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında Azərbaycan Respublikasının Qanunu"ndan irəli gələn bir sıra tədbirlərin icrası ilə bağlı məsələlər müzakirə olunub. Bildirilib ki, bu qanun ölkə əhalisinin sağlamlığının qorunması, sağlam həyat tərzinin təbliği, uşaqların və gənclərin sağlam böyüməsi və inkişafı, tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirlərinin azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Diqqətə çatdırılıb ki, qanunun 10-cu maddəsinin 1.12-ci bəndinə əsasən müntəzəm şəhərdaxili avtobuslar və taksi minik avtomobilləri tütündən istifadənin məhdudlaşdırıldığı yerlərdən biri kimi müəyyən edilib. Qanun tələbinin qısa vaxtda icrasının təmin edilməsi ilə bağlı daşıyıcılara göstəriş verilib. Bununla əlaqədar istehsalat bazalarında sürücülərlə müvafiq izahat işlərinin aparılması, sərnişinlərlə münasibətdə etik-davranış qaydalarına əməl edilməsi, həmçinin, nəqliyyat vasitəsinin təhlükəsiz idarəedilməsi ilə bağlı təlimatların verilməsi tapşırılıb. Bir daha daşıyıcıların diqqətinə çatdırılıb ki, sərnişinlərin rahatlığı və təhlükəsizliyi baxımından müvafiq qanunlarla müəyyən edilən tələblərə əməl etməyən daşıyıcılarla bağlı ciddi tədbirlər görüləcək.




# Yeni nəşrlər

## "Xəlil Rza Ulutürk" biblioqrafiyası

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından xalq şairi, tənqidçi, ədəbiyyatşünas, tərcüməçi, türk dünyasının tanınmış şəxsiyyəti Xəlil Rza Ulutürkün anadan olmasının 85 illiyi ilə bağlı "Xəlil Rza Ulutürk" adlı göstərici hazırlayaraq çap edib. Göstərici X.R.Ulutürkün haqqında tərtib edilmiş ilk fundamental biblioqrafiyadır.

Qeyd edək ki, Azərbaycan Milli Kitabxanasının bundan öncə həmin seriyadan bir sıra görkəmli şəxsiyyətlərə aid hazırladığı biblioqrafiyalar işıq üzü görüb. Bunlardan "Azərbaycan Respublikası Dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü", "Heydər Əliyev Fondu-10", "Akademik Zərifə Əliyeva-90" və digər adlarda elektron biblioqrafiyalar, "Teymur Elçin", "Azərbaycan Milli Kitabxanası-90", "Azərbaycan ekologiyası 10 ildə", "Nizami Gəncəvi", "Mirzə Ələkbər Sabir", "Tahir Salahov", "Mir Cəlal", "Müslüm Maqomayev" (baba), "Fikrət Əmirov", "Aşıq Ələsgər" və digər onlarla göstərici Milli Kitabxananın Azərbaycan biblioqrafiya tarixinə verdiyi ən dəyərli töhfələrdəndir.

Milli Kitabxana "Xəlil Rza Ulutürk" nəşrində şairin 1948-2017-ci illərdə dərc olunan əsərləri, habelə həyat və yaradıcılığı, ictimai-siyasi fəaliyyəti haqqında materiallar "Xəlil Rza Ulutürkün həyat və yaradıcılığının əsas tarixləri", "Xəlil Rzanın yadda qalan misraları", "Xəlil Rza Ulutürk qələm dostları haqqında", "Görkəmli şəxsiyyətlər və qələm dostları Xəlil Rza haqqında" bölmələrində öz əksini tapıb.

Azərbaycan və rus dillərində çap olunmuş biblioqrafiyaya akademik İsa Həbibbəyli rəy vermişdir. "Xəlil Rza Ulutürk" göstəricisini kitabxananın əməkdaşları Mədinə Vəliyeva, Lalə Şirinova və Gülbahar Misirova tərtib etmişlər. 463 səhifədən ibarət biblioqrafiyanı tərtib edərkən Dövlət Arxiv sənədlərindən, Milli Kitabxananın Fondundan, AMEA-nın Elmi Kitabxanasından, universitetlərin kitabxanalarından, şairin şəxsi arxivindən və digər mənbələrdən istifadə olunmuşdur. Biblioqrafiyanın elmi redaktoru professor, əməkdar mədəniyyət işçisi Kərim Tahirov, redaktoru əməkdar mədəniyyət işçisi Gülbəniz Səfərəliyevadır.

"Xəlil Rza Ulutürk" fundamental biblioqrafiyası xalq şairinin yubileyinə Milli Kitabxananın verdiyi ən dəyərli töhfədir. Göstəricidə filologiya elmləri doktoru, professor Əlizadə Əsgərlinin ön söz əvəzi "Xəlil Rza Ulutürk-Azərbaycnçılıq məfkurəsinin davamçısı" adlı məqaləsi də çap olunmuşdur. Kitab ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

***Ədilə Qocayeva,***
***AJB-nin üzvü***

# Vergi bəyannamələrini yanvarın 22-dək təqdim etməyənlərə qarşı 40 manat cərimə tətbiq ediləcək

2018-ci ilin yanvar ayının 22-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir. Vergilər Nazirliyinin Media və Kommunikasiya Mərkəzindən AZƏRTAC-a bildirilib ki, bəyannamələr müəyyən edilən müddətdə təqdim edimədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur.

***Suriyada savaş getdikcə fərqli məzmun kəsb etməyə başlayır, çünki burada ərazilər əldən-ələ keçməkdə davam edir. Hökumət qüvvələri hansısa bir yeri azad edirsə, başqa istiqamətdən ağır zərbələr alır. Sanki ssenarisi əvvəlcədən yazılmış bir geosiyasi-hərbi oyun gedir. Hələlik tərəflərdən heç biri tam üstünlük əldə edə bilmir. Rusiyanın dəstəyi ilə Bəşər Əsəd ordusu xeyli ərazi azad etsə də, onun necə qorunacağı məsələsi aydın deyildir. Bunun fonunda Hələbin müxalifətin əlindən alınmasının sevinci uzun sürmədi - "Yaxın Şərqin mirvarisi" sayılan Palmiranı İŞİD yenidən zəbt etdi. B.Əsədə bağlı qüvvələr sürətlə şəhəri tərk etməli oldular. Bundan başqa, İŞİD-ə qarşı Mosulda aparılan əməliyyat da uğurlu görünmür. Bir sıra ekspertlər hesab edirlər ki, Suriya ordusunun hissələri azad etdikləri ərazilərdə qətliam törədirlər. Bu da sadə insanların İŞİD-in tərəfinə keçməsinə səbəb olur. Belə çıxır ki, hay-küylə başlayan hərbi əməliyyatlar digər səbəblərdən səmərəliliyini itirməyə başlayıb. Bəs çıxış yolu nədədir? Suriyada qan axıdılmasının qarşısını kim ala biləcək?***



# Bir qələbə və bir məğlubiyyət: Hələbdən Palmiraya və Mosula qədər

### Ləng irəliləyiş, sürətli qaçış: Əsəd ordusunun bir sindromu haqqında

Hələbin Bəşər Əsədə bağlı silahlı qüvvələr tərəfindən zəbt edilməsindən sonra Suriyada sülhün yarana biləcəyinə ümidlər tamamilə puç oldu. Dəməşqi dəstəkləyən Moskva və Tehranın sevinci elə də uzun sürmədi. Bu ölkələrin kütləvi informasiya vasitələrində bir neçə gün davam edən qələbə raportları indi baş verənlərin analizi ilə əvəz edilib. Məsələ heç də Rusiya-İranrəsmi Dəməşq hərbi ittifaqının zəifliyində deyil. Əksinə, proseslər göstərir ki, bu, Suriyada vəziyyəti dəyişə biləcək potensiala malik ittifaqdır. Ancaq reallıqda döyüş səhnəsinə daha çox faktorlar təsir edə bilir. Onun təsdiqi kimi İŞİD-in Hələb itirilən anda Palmiranı sürətlə Əsəd tərəfdarlarından təmizləməsini göstərmək olar.

Analitiklər bu məqamı xüsusi qeyd edirlər. Çünki Rusiya, İran və Qərb siyasi dairələrinin məruzələrində İŞİD-in çox zəiflədiyindən, artıq əvvəlki kimi döyüşmək imkanına malik olmadığından bəhs edilir. Digər tərəfdən, Palmiranın məhz Hələbin çöküşü ilə eyni vaxtda yenidən terror qruplaşmasının əlinə keçməsi müəyyən suallar doğurur. Özü də Rusiya aviasiyası və İranın seçmə əsgərləri İŞİD-in qarşısını kəsə bilməyib. Bu, nə deməkdir?

Mütəxəssislər bir neçə səbəb göstərirlər (bax: məs., Nikolay Kojanov. Padenie Palğmırı i Aleppo: kak gto izmenit situaüiö v Sirii / "carnegie.ru", 15 dekabr 2016). Öncə onu vurğulayırlar ki, Hələbin alınması ilk növbədə Rusiya hərbi dairələrinin xidməti ilə bağlıdır. Çünki təcrübə göstərir ki, müharibədə Rusiya əməliyyatları təşkil edib həyata keçirməkdə Suriya ilə İrandan xeyli üstündür. Artıq Suriyada Rusiyanın yalnız aviasiyası deyil, zabitləri, həkimləri, kəşfiyyatçıları və xüsusi təyinatlıları da iştirak edirlər. Ruslar işə bu cür qarışandan sonra B.Əsəd ordusu irəliləyə bilib.

Bununla yanaşı, ekspertlər vurğulayırlar ki, bu uğur Moskvanın özündən razılıq hissini gücləndirib və sayıqlıq itirilib. Digər tərəfdən, Qərb siyasi dairələri və mediası İŞİD haqqında yanlış informasiyalar yayıblar. Belə ki, onlar bu terror təşkilatının gücünü xeyli itirdiyi barədə müntəzəm xəbər veriblər. Buna rəğmən, konkret heç bir addım atılmayıb. ABŞ əsas olaraq kürd qruplaşmalarını yeni silahlarla təmin edib. Son məlumatlara görə, artıq PKK/PYD-də amerikanların ağır silahları, "Stinger" hava hücumundan müdafiə sistemi və zirehli avtomobillərə qarşı istifadə olunan raketləri vardır (bax: Özcan Yeniçeri. Suriye'de bilek güreşi ve Türkiye / "yenicaggazetesi.com.tr", 16 dekabr 2016).

Qərbin bu addımları Rusiya üçün aldadıcı manevrlərmi olub? Burada xüsusi məqsədləmi hərəkət ediblər? İndi bir sıra ekspertlər bu suallara müsbət cavab verməyə meyllənirlər (bax: məs., əvvəlki mənbəyə). Bu kontekstdə Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayerin aşağıdakı fikri diqqəti çəkir. O Hələbin çöküşündən dərhal sonra deyib: "Dəməşqdəki rejim və onu hərbi vasitələrlə dəstəkləyənlər - Rusiya və İran Hələbin avtomatik olaraq Suriya münaqişəsində dönüş nöqtəsi olması illüziyasına qapılıblar. Əlbəttə, Hələbin çöküşü ciddi hadisədir, buna şübhə yoxdur. Ancaq mən düşünürəm ki, əgər bunu Dəməşqdə vətəndaş müharibəsinin sonu sayırlarsa, bu, tezliklə illüziya olacaq" (bax: Evqeniy Krutikov. Asadu daöt ponətğ, çto voyna ehe ne okonçena / "vz.ru", 13 dekabr 2016).

Diplomatların bu cür fikirlərinə ABŞ-ın radikal qruplara yeni silahlar satması ilə eyni məntiqi çərçivədə baxsaq, aydın olar ki, söhbət hansısa sistemli və düşünülmüş fəaliyyətdən, ciddi bir prosesdən, vətəndaş müharibəsindən gedir. Bu mənada Palmiranın yenidən İŞİD-in nəzarətinə keçməsi Dəməşqə konkret siqnaldır. Təbii ki, Moskva və Tehran da ondan lazımi nəticələr çıxarmağa məcburdurlar. Ekspertlərə görə, Rusiya və İran əmin oldular ki, sırf hərbi yolla terrorun qarşısını ala bilməyəcəklər. Onların orada sərf etdiyi güclə qazancları arasında ciddi uyğunsuzluq vardır. Çünki uzun müddət savaşıb azad etdikləri əraziləri İŞİD heyrətedici sürətlə geri ala bilir.

### Hələb-Palmira-Mosul xətti: kimin kabusu?

Palmira ilə yanaşı, Mosulda da vəziyyət arzu edilən deyil. Orada ilk günlər sürətlə irəliləyən İraq ordusu və onun müttəfiqləri artıq yerlərində sayırlar. Rakkadan da söhbət getmir. Oraya olacaq hücum planı Palmira küçələrində ilişib qalıb. İndi düşünürlər ki, Rakka, yaxud Mosul, İdlib alınsa belə, onları əldə saxlaya biləcəklərmi? Bu suala konkret cavab verən yoxdur. Qərb indi daha çox PYD-nin nəzarətində olan təhlükəsizlik zolağının yaradılmasından danışır. Lakin bu qruplaşmanın həmin vəzifənin öhdəsindən gəlməsi mümkün deyildir. Çünki, birincisi, Türkiyə PYD-ni terror təşkilatı adlandırır və onu daim vurur. İkincisi, Türkiyənin özünün təhlükəsizlik zolağı planı vardır. "Fərat qalxanı" əməliyyatının əsas məqsədi bunu təmin etməkdən ibarətdir. Deməli, söhbət faktiki olaraq Suriyada Türkiyə-Qərb qarşıdurmasından gedə bilər. Çətin ki, tərəflər buna getsinlər. İkincisi, rəsmi Dəməşq və bir sıra müxalif qruplar kürd qruplaşmasının aktivləşməsini qəbul etmirlər. Onlar PYD də daxil olmaqla kürdlərin təşkilatlarının bir yerə qədər təsirli olmasını istəyirlər. Bu səbəbdən təhlükəsizlik zolağına qarşı Bəşər Əsəd və bəzi radikal qruplar da çıxış edəcəklər. Deməli, faktiki olaraq ABŞ-ın bu planı vəziyyəti yaxşılaşdırmağa, münaqişəni aradan qaldırmağa yox, daha xaotik bir vəziyyət yaratmağa xidmət edir.

Məsələyə regionda marağı olan başqa dövlətlərin fəaliyyəti aspektində baxdıqda da, bir qarışıqlıq görünür. Belə ki, Fransa, Səudiyyə Ərəbistanı, İsrail və başqa ölkələrin Suriya məsələsində öz maraqlarının olduğu sirr deyil. Fransa son zamanlar xeyli passivləşib, Səudiyyə Ərəbistanının başı isə Yəməndəki münaqişəyə qarışıb. Türkiyə özü xüsusi hərbi əməliyyat keçirir, ancaq ərazisindəki terror aktlarından da zərər görməkdədir. Buna baxmayaraq, hələlik Ankara yuxarıda sadalanan ölkələrdən daha çox Suriya proseslərinə təsir edə bilir. Ankaranı Rusiyanın da müəyyən məsələlərdə dəstəkləməsi ona əlavə üstünlük verir.

Bütün bunlar ekspertləri belə nəticəyə gətirir ki, Dəməşqin ərazi azad etmək limiti tükənmək üzrədir. Müəyyən şərtlər daxilində hansısa yaşayış məntəqəsi azad olunsa belə, onun əldə saxlanması problemi daimi olacaq. O halda bir neçə ssenari ola bilər.

Onlardan biri Rusiya və İranın Suriyaya yeni hərbi qüvvələr göndərməsi ilə bağlıdır. Onu reallaşdırmaq isə xeyli risklidir. Çünki sanksiyalar altında qalan Rusiya və hələ də özünə gələ bilməyən İran üçün bu, ağır yükdür. Bu səbəbdən həmin ssenarinin reallaşması ehtimalı yüksək görünmür. Başqa ssenari yeni ərazi azad etmək məqsədindən əl çəkərək danışıqlara üstünlük verməkdən ibarətdir. Bu da kifayət qədər mürəkkəb prosesdir. Çünki böyük qüvvələr öz maraqlarını gözləyəcəklər ki, proses də uzanacaq. Yaranmış boşluqdan istifadə edən müxaliflər və rəsmi Dəməşq yeni səviyyədə silahlı toqquşmalara rəvac verə bilərlər. Bu da regionu daha dərin böhrana sürükləyə bilər.

Nəhayət, üçüncü ssenariyə görə, Rusiya hər şeyi necə varsa, qoyub Suriyanı tərk edə bilər. Bu isə Moskvanın qanlı olaylar arasında qalması demək olardı (bax: Nikolay Kojanov. Padenie Palğmırı i Aleppo: kak gto izmenit situaüiö v Sirii / "carnegie.ru", 15 dekabr 2016). Çətin ki, Kreml bu variantı qəbul etsin. Bunlar onu təsdiqləyir ki, Suriyanın ikinci iri şəhərinin böyük dağıntılarla hökumət qüvvələrinin əlinə keçməsi faktiki olaraq heç nəyi həll etmir. Sadəcə, münaqişə yeni səviyyədə və fərqli qüvvələr nisbəti ilə başqa məzmun kəsb edir. Görünür, bu proses uzun müddət davam edə bilər. Böyük dövlətlər arasında konkret razılaşma olana qədər Suriyada qan töküləcəkdir. Belə bir risk var ki, Donald Tramp dövründə Yaxın Şərq daha böyük və geniş intriqalar meydanına çevrilsin. Buradakı hadisələrə region dövlətləri ilə yanaşı, digərləri də qarışa bilər. Hələb, Palmira və Mosul hadisələri daha çox bu müstəvidə düşünməyə məcbur edir. Suriyada müharibə bütün şiddətliliyi ilə davam edir.

***Newtimes.az***

# Erməni xalqı üsyana hazırlaşır

## *Bu faktor istisna edilmir*
















***Sirr deyil ki, Ermənistan prezidenti Serj Sarkisyanın qəddar rejimi məğlubiyyət, uğursuzluq və cinayətlərini gizlətməyə, kriminal oliqarxiya ilə hakimiyyəti qəsb etmiş dəstənin legitimləşmə cəhdlərini müxtəlif bəlağət səviyyəsindəki bəyanatlarla pərdələməyə çalışır. Dəfələrlə bu barədə istər xarici, istərsə də erməni politoloqları danışıblar. Fakt budur ki, Ermənistan məhv olmaq üzrədir və onu məhvə doğru sürükləyən Serj Sarkisyandır. Belə ki, bu gün adi erməni vətəndaşının yaşamaq üçün heç bir şansı da yoxdur. Aclıq və səfalət içində olan erməni xalqı, hətta qiyam da etməyə çalışdı, ancaq buna gücü çatmadı.***

Bu arada Ermənistanın statistikası da hər şeyi tam çılpaqlığı ilə əks etdirir. Günügündən düşən rəqəmlər, ölkədə işləyən və ya işsiz olan, amma işləməyə hazır adamların sayı ilə bağlı statistika iqtisadiyyatdakı böhranın fasiləsiz güclənməsindən xəbər verir.

### Serj Sarkisyan çoxşaxəli mütəşəkkil cinayətkarlığın kriminal gəlirlərinin legitimləşdirilməsi ilə məşğuldur

Xalq bank kreditləri içində boğulur və ölkədəki bank sisteminin bərbad vəziyyətdə olmasını kommersiya banklarının aktivlərinin çoxunu kreditlərin təşkil etməsi də aşkar göstərir. Düzdür, Sarkisyan rejimi gözdən pərdə asmaq üçün ölkədəki maliyyə vəsaiti dövriyyəsi və daxili investisiyaların artmasından bəhs edərək, iqtisadi inkişafı vurğulaya bilər. Lakin rəqəmlər tam tərsini göstərir və bu əks-mənzərə Yerevan hakimiyyətinin, necə deyərlər, əxlaqi deqradasiyası ilə mənəvi tənəzzülünü də ortaya qoyur. Ona görə də, rəsmi statistika daxili investisiyalar həcminin son illər fasiləsiz azaldığını etiraf edir, çünki belə rəqəmləri bütün səylərə və saxtalaşdırmalara rəğmən, gizləmək çox çətindir, hətta mümkünsüzdür. Halbuki bu gün Ermənistan iqtidarındakı yüksək çinli məmurların birbaşa nəzarətində olan, lakin üzdə müstəqil maliyyə-bankinq strukturu kimi təqdim edilərək, guya fəaliyyət göstərən bankların total əksəriyyəti çirkli pulların yuyularaq təmizlənməsi, başında S.Sarkisyanın durduğu çoxşaxəli mütəşəkkil cinayətkarlığın kriminal gəlirlərinin legitimləşdirilməsi ilə məşğuldur.

### Ovanes Marqaryan: "Bizi dəhşət gözləyir"

Belə tələblərə riayət etməyən banklar isə ölkədə, ümumiyyətlə mövcud deyil.

Yeri gəlmişkən, erməni deputat Ovanes Marqaryan da, bəyan edib ki, son iki ildə ölkədə kəskin surətdə yoxsulluq və işsizlik artıb, minlərlə insan xarici ölkələrə gedib: "Hazırda Ermənistanda sosial-iqtisadi vəziyyət acınacaqlı durumdadır. Ölkənin xarici borcu 6 milyard dollar olduğu halda, büdcəsi 2,5 milyard dollardır. İşsizlik insanları boğur. Vəziyyət getdikcə daha da ağırlaşır. Ciddi addımlar atmaq lazımdır. Əks təqdirdə, bizi dəhşət gözləyir".

Erməni ekspertləri, həmçinin, hesab edirlər ki, ölkə sosial partlayış ərəfəsindədir. Erməni Milli Konqresinin nümayəndəsi Vaqan Xaçatryan bununla bağlı bildirir ki, mövcud büdcənin vəziyyətindən də, aydın görünür ki, Sarkisyan hökuməti Ermənistanı bərbad hala qoyub. Çünki yeni büdcədə göstərilən rəqəmlər kağız üzərindədir. Artıq ölkə fəlakətin bir addımlığındadır. Gözlənilən fəlakətin qarşısını almaq gücündə olmayan hökumət tam tərkibdə istefa verməlidir. Lakin Serj istefa verməməklə yanaşı, hakimiyyətdəki "konstitusiya islahatlarından" yararlanıb, özünü baş nazir təyin etdirməyə çalışır. Çünki parlament idarəçiliyində, o, topun elə özündə qalmasını arzulayır. Fəqət, erməni xalqının çox yaxın zamanlarda bu rejimə qarşı çıxıb, üsyan edəcəyini də istisna etmək olmaz.

**R.RƏSULOV**

TƏRS BAXIŞ

*Müsavat partiyasında davam edən funksionerlərarası qarşıdurmalar partiyadaxili çəkişmələrin sayını artırmaqdadır. Demək olar ki, keçirilən hər bir toplantı dava-dalaşla və təhqirlərlə yekunlaşır. O cümlədən, ötən ilin sonlarından baş qaldırmış istefalar vəziyyətin daha da gərginləşməsinə səbəb olmaqdadır. Son vaxtlar başqan Arif Hacılının partiyada avtoritar idarəçiliyini artırması, kimə gəldi töhmət verməsi və təşkilatın sıralarından çıxarılacağı ilə hədələməsi də bu xüsusdadır.*

# Müsavatda daxili çəkişmələr davam edir

## *Keçirilən hər bir toplantıda dava-dalaş baş verir*

Artıq sözügedən prosesə daha öncə qurumdan çıxarılan, eləcə də, öz xoşları ilə gedən eks-müsavatçılar da qoşulublar. Onlar son proseslərə qarşı eyni nöqtəyə vurmaqla başqan A.Hacılını və onun ətrafını hədəfə alırlar.

### Narazı müsavatçıdan Arif Hacılıya xitabən: "Sizin vicdanınız varmı? Təbii ki, yoxdur!"

Bu arada daha çox etiraz səsi qaldıran narazı müsavatçılardan biri də partiyanın Cəlilabad rayon təşkilatının üzvü Ramil Sadıqlıdır. O, artıq özü kimi digər müsavatçıları da Hacılının oyunbazlıqlarına qarşı amansız mübarizəyə səsləyir. R.Sadıqlı A.Hacılının iradəsi ilə tətbiq olunan cəza tədbirlərinə qarşı çıxmaq, bu haqda cəmiyyətə informasiya ötürmək və Müsavatda narazı təbəqəni təşkilatlandırmaq fikrində olduğunu da gizlətmir. Çünki Müsavat başqanı və onun tərəfdarları narazılara qarşı ən iyrənc metodlardan da çiyrənmədən istifadə edirlər. Misal üçün, R.Sadıqlı da, bu barədə deyib ki, tətbiq edilən cəza tədbirindən sonra qarşı tərəf onu az qala cinayətkar, şantajçı və böhtançı qismində cəmiyyətə təqdim etməyə cəhdlər edir. Narazı müsavatçı A.Hacılıya xitabən soruşur: "Mənim partiyadan xaric olunmağımın səbəbini niyə təhrif edib yanlış istiqamətə yönəldir və bununla da, guya dostlarımızı aldadırsınız? Axı sizin buna nə ixtiyarınız çatır? Hansı haqla, Müsavatda bu illər ərzində, göstərdiyim xidmətlərin üzərindən xətt çəkir və məni reket-jurnalist kimi cəmiyyətə "təqdim" edirsiniz? Sizin vicdanınız varmı? Təbii ki, yoxdur! Əgər vicdanınız olsaydı, adi siyasi etik normalara riayət edərək, məni şantaj etməkdən çəkinərdiniz".

### Daha bir ittiham: "Əsl şantajçı sizsiniz! İmkanınız olsa, məni güllələyərdiniz..."

Narazı müsavatçı istər yaxın çevrəsində, istərsə də sosial şəbəkədə Hacılıya qarşı irəli sürdüyü ittihamlardan sonra təqiblərə məruz qaldığını da deyərək, Müsavat rəhbərliyinin imkanı olsaydı, tərəddüd etmədən onun ölümünə də fərman verərdi. Sitat: "Hamı bilir ki, mən Azərbaycan Demokratiya və Rifah Hərəkatının Cəlilabad rayon təşkilatını təsis etdikdən sonra, burada ADR-çilərə qarşı "səlib yürüşü" başladı. Çünki biz bu addımımızla A.Hacılının qəzəbinə tuş gəldik. Onun qəzəbinə tuş gələnlərin sonuncusu şəxsən mən oldum. Bir neçə gün əvvəl, sosial şəbəkədə yazdığım statusum sizi açmadı. Başqa sözlə, tənqidə dözümünüz olmadı. Siz son bir ildə bircə Qubad İbadoğlunu həzm edə bilmədiniz. Məni isə imkanınız olsaydı, güllələyərdiniz. Amma məni yaxşıca xərclədiniz və sonradan partiyadan ədalətsiz formada qovdunuz."

Məsələ yalnız bununla bitmir. A.Hacılının daha bir başağrısı isə hazırda başqan müavinliyindən istefa vermiş sıravi partiya üzvü olan Elman Fəttahdır. Məsələ ondadır ki, E.Fəttah səsli-küylü bəyanat verdikdən sonra A.Hacılı çox ciddi narahatlıq keçirməyə başlayıb. Ona görə də, dərhal mərkəzi nəzarət-təftiş komissiyasına təlimatlarını verib. Məhz onun tapşırığından sonra E.Fəttahın yanında yer alan bütün müsavatçılara təşkilat sıralarından çıxarılacaqları xəbərdarlığı edilib. Müsavat başqanını ciddi şəkildə qorxuya salan daha biri isə Tofiq Yaqubludur. Onun Müsavatın başqan müavini olmasına rəğmən, AXCP-yə və "Milli Şura"ya yaxınlıq etməsi vəziyyətin gərginləşməsinə səbəb olmaqdadır. Bu baxımdan, "Başqa partiyada təmsil olunan adamlar, rəhbərliyin qərarına qarşı çıxanlar Müsavat partiyasından çıxarılacaq. Müsavat partiyasının üzvü digər partiyada təmsil oluna bilməz"-deyə A.Hacılı hədə-qorxu gəlməyə başlayıb.

Beləliklə, Müsavatda baş verən çəkişmələrin bundan sonra, nəinki səngiməsi gözlənilmir, o cümlədən, partiyadaxili qarşıdurmaların daha da kəskinləşəcəyi proqnozlaşdırılır. Əlbəttə ki, bütün bunların təməlində doğru olmayan idarəçilik sistemi ilə yanaşı, həm də şəxsi maraqlar amili dayanır. Qısası, sabiq başqan İ.Qəmbər Müsavatın sükanını özündən heç də fərqlənməyən birinə həvalə edib ki, bu da uzun illərdir partiyadaxili intriqaların davam etməsinə zəmin yaradırdı. Hazırda ortada olan faktlar da, belə qənaətə gəlməyə əsas yaradır. Nəticədə, Müsavatın bir siyasi təşkilat olaraq, ayaqda qalma mümkünlüyü günlər keçdikcə azalır. Xüsusilə, 2018-ci il seçkilərinə bir neçə ay qalmış bu cür hadisələrin baş verməsi partiyanın fiaskosunu rəsmiləşdirir.

***Rövşən RƏSULOV***

# Mais Səfərli: "Bu gün istər Müsavat, istərsə də AXCP fiaskoya uğramış partiyalardır"



Müsahibimiz "Yurddaş" partiyasının sədri Mais Səfərlidir

**- Mais bəy, ümumi nəticələrə əsaslanaraq, demək olarmı ki, 2017-ci il müxalifət üçün son dərəcə uğursuz oldu?**

- Əvvəlki illərdə olduğu kimi, 2017-ci il də müxalifət üçün uğursuz illərdən biri oldu. Ümumiyyətlə, bu günə qədər müxalifət üçün hansı il uğurlu olub ki, bundan sonra da olsun?! Demək olar ki, müxalifət düşərgəsini təmsil edən şəxslər beyinlərində "bundan sonra nə isə edə bilərlər" kimi reallığı özündə əks etdirməyən xəyallar qururlar. Yaxşı olardı ki, uzun illərdir ki, xəyallar aləmində özlərinə taxt-tac quranlar siyasətdən gedərək, əməli fəaliyyətlə məşğul olsunlar. Təcrübəyə əsasən, demək olar ki, 2018-ci il də dağıdıcı müxalif ünsürlər üçün əvvəlki illərdən fərqlənməyən bir il olacaq. Hətta bəzi partiyaların arxivə atılması və liderciklərin siyasətdən getmələri də istisna olunmur.

**- Sizcə, siyasətə gəlir mənbəyi kimi baxan Müsavat və AXCP kimi dağıdıcı partiya rəhbərləri siyasətdən gedə bilərlərmi?**

- Birmənalı şəkildə, demək olar ki, bu gün istər Müsavat, istərsə də AXCP fiaskoya uğramış partiyalardır. Onların fəaliyyəti görünməzdir. Normal partiya quruculuğu apara bilmədiklərinə görə, cəmiyyətin dəstəyindən məhrum olublar və uzun illərdir ki, müxalifətdə qalaraq, ölkədə keçirilən bütün seçkiləri uduza-uduza gəliblər. Ona görə də, bunların başqa bir çıxış yolu yoxdur. Sadəcə olaraq, bunlar yalnız və yalnız populist bəyanatlar verməklə gündəmdə qalmaq istəyirlər. Artıq Azərbaycan xalqı müxalifət düşərgəsini təmsil edən şəxslərin populist bəyanatlarından bezib. Əlbəttə ki, müxalifət partiya sədrlərinin bu cür hərəkətlərə əl atmaları heç vaxtı onlara başucalığı gətirməyəcək.

**- Müxalif düşərgədə "vahid namizəd" olmaq uğrunda çəkişmələrə start verilib. Sizcə, bu, yeni qopmalara gətirib çıxaracaqmı?**

- Müxalif liderlər heç vaxtı vahid mövqeyə gələ bilməyiblər. Müxalifət partiya sədrlərinin vahid mövqeyə gələ bilməmələrinin bir çox səbəbləri var. Ən başlıca səbəbi də, bunların müxtəlif qütblərdən idarə olunan partiyalar olmalarıdır. Yəni ayrı-ayrı qütblərə və mərkəzlərə bağlı partiyalar olduqlarına görə, onlar heç vaxtı bir araya gələ bilməyiblər. Əgər o partiyalar bir araya gələ bilsəydilər, çoxdan birləşərdilər. Sadəcə olaraq, müxalifət partiya sədrləri cəmiyyətə bir birlik mesajı vermək üçün və özlərinin, guya ki, vahid amal uğrunda mübarizə apardıqlarını sübut etmək üçün, bəzən, görürsən, bir olmaq cəhdləri edirlər, bəzən də, görürsən ki, müvəqqəti qurumlar yaradırlar. Amma onlara birlik demək olmaz. Ümumiyyətlə, bu gün, demək olar ki, müxalifət düşərgəsini təmsil edən şəxslərin özləri də, bilmirlər ki, nə uğrunda mübarizə aparırlar. Bir sözlə, bu gün nə müxalifət partiyalarının özündə, nə də ki, liderlər arasında birlik yoxdur. Sadəcə olaraq, yaranan hər hansı bir birlik görüntüdən başqa bir şey deyil.

**- Deməli, indiki məqamda yeni birlik yaratmaq üçün apardıqları danışıqlar nəticəsiz qalacaq?**

- Əlbəttə, nəticəsiz qalacaq. Müxalifətin belə bir ənənəsi var ki, seçkilər öncəsi bir-biri ilə danışıqlar aparırlar, dialoqa gedirlər, hansısa bir qurum yaratmaq istəyirlər. Bəzən də, görürsən ki, hansısa bir müvəqqəti qurum görüntüsü yarada biləcək bir təşkilat formalaşdırırlar. Amma seçkilər ərəfəsində həmin qurum öz effektini verməDiyinə görə, ondan sonra günahkar axtarırlar və günahkar axtarışında da bir-birini günahlandırıb, böyük davaya başlayırlar. Bu dava-dalaş da onların arasında uzun müddət sürən bir qarşıdurmaya gətirib çıxarır. Bir sözlə, müxaliflər arasında münaqişələr və dava-dalaşlar hələ qabaqdadır.

***GÜLYANƏ***

## 104 cinayət faktından 15-nin üstü "isti izlər"lə açılıb

Respublikanın daxili işlər orqanları tərəfindən ötən gün qeydə alınmış 104 cinayət faktından 15-nin üstü "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, axtarışda olduğuna görə doqquz nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş dörd yol-nəqliyyat hadisəsi nəticəsində iki nəfər ölüb, dörd nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli yeddi, qanunsuz saxlanılan silah-sursatla bağlı bir fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 23 nəfər saxlanılıb.

# Qanunsuz yolla ölkəyə mobil telefonların gətirilməsi cəhdinin qarşısı alınıb



Qanunsuz yolla ölkəyə mobil telefonların gətirilməsi cəhdinin qarşısı alınıb. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Balakən Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olan məlumat əsasında idarənin "Mazımçay" gömrük postunda Gürcüstandan Azərbaycan Respublikasına "Mercedes Benz E220 CDİ" markalı avtomobillə gələn Azərbaycan vətəndaşı ilə gömrük bəyannaməsinin bəndlərinə uyğun olaraq şifahi sorğu-sual aparılıb. Həmin şəxs gömrükçülərə üzərində və nəqliyyat vasitəsində gizlədilən, gömrük nəzarətinə mütləq bəyan edilməsi predmetlərin olmadığını bildirib.

Nəqliyyat vasitəsində aparılan yoxlamadan sonra sürücünün və avtomobildə sərnişin qismində səyahət edən Azərbaycan Respublikası vətəndaşının üzərində şəxsi yoxlama aparılıb. Yoxlama zamanı sürücünün şalvarının cibindən "Samsung" və "Lenovo" markalı 3 ədəd mobil telefon, onun sərnişininin şalvarının və gödəkcəsinin ciblərindən isə "Samsung" və "Huawei" markalı 14 ədəd mobil telefon, "Sandisk" markalı müxtəlif həcmli 10 ədəd yaddaş kartı aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

# Novruzda səməni bayramı və kiçik çillə

Fevral ayının əvvəlindən başlayaraq, 20 gün davam edən Kiçik çillə qışın oğlan çağı sayılır. Kiçik çillə soyuqluğu, boran-tufanı, şaxta-sazağı ilə özündən əvvəlki çillələrdən seçilir. Kiçik çillənin Xıdır Nəbi adlanan birinci ongünlüyü isə, ümumiyyətlə, qış fəslinin ən sərt, çovğunlu, dondurucu vaxtı sayılır və buna, hətta elə bu xüsusiyyətinə görə "yalquzaq zamanı" da deyilir. El arasında qış fəsli Xıdır Nəbi ilə səciyyələnir. Əbəs yerə deyil ki, bir Azərbaycan atalar sözündə də "Xıdır girdi qış girdi, Xıdır çıxdı qış çıxdı" - deyilir. Qeyd olunan zamanın "Xıdır Nəbi" (peyğəmbər) adlanması və bu şərəfə icra olunan ayinlər Xıdırın yaşıllıq, bahar hamisi sayılan Xızırla və əksər xalqlarda olduğu kimi, su, yağış, çay, dəniz hamısı bilinən İlyasla da əlaqəsindən xəbər verir."

"Dəryada nə işim var ki, Xıdır İlyası da köməyə çağıram" kimi örnəkləri də bunu sübut edə bilər. Amma əslində, bunların bir-biri ilə heç bir bağlılığı yoxdur. Belə ki, Xıdır Nəbi, bilavasitə, Kiçik çillənin ilk ongünlüyündə keçirilən xüsusi mərasimlə bağlı olduğu halda, Xızır, dediyimiz kimi, yaşıllıqla və baharla bağlıdır. Bunun belə olmasını mənbələr və tədqiqatlar da təsdiq etməkdədir. Türkoloq-alim V.V.Radlov öz lüğətində "ruzi-Xızırı" - "Xızır günü" kimi açıqlayır və bu günün yazın ilk günü olduğunu xüsusi şəkildə nəzərə çatdırır. Professor M.H.Təhmasibin Xızırla ilgili "Qamusi-Firuzabadi" və Şəmsəddin Saminin "Qamusi-ələm"ından verdiyi xəbərlər də maraqlıdır. Bunların birincisində deyilir ki, seyr olunan yerlərin çəmənzar olması Xızırın işidir. İkincisində isə, baharın ilk günü haqqında belə deyilir: "Əslən yaşıllıq günü mənası ilə ruzi-Xızır olsa gərəkdir. Zira ağacların yarpaqlandıqları və otlaqların yaşıllaşdığı gündür".

Adıçəkilən qaynaqlarda elə İlyas haqqında da bu şəkildə dəyərli məlumatlar vardır. O, bütün hallarda su ilə bağlı təsvir və təqdim olunur. Bəzi hallarda, hətta Nuhun qardaşı oğlu, Xızırın əmisi olmaqla, Xəzər dənizinin padşahı da sayılır. Amma təkrar qeyd edirik ki, Xıdır Nəbi qışın dondurucu, şaxtalı, hətta "yalquzaq" adlanan çağında çağırılır və bu şərəfə mərasim keçirilir. Bu mərasimə gərək hər ev, hər ailə hazırlaşsın və onu təntənəli şəkildə qeyd etsin. Mərasimin hamı tərəfindən qeyd olunması naminə imkansızlara, kasıblara kömək və yardım edilərmiş. Çünki bayram axşamı, yəni Kiçik çillənin onuncu gününün axşamı, hətta bir ev belə azuqənin yoxluğu səbəbindən süfrə açmazmışsa, onda elə zənn edilərmiş ki, guya Xıdır Nəbi bunu özünün sayılmaması kimi başa düşəcək, küsüb gedəcək və bununla da, baharın gəlməsi yubanacaq. Fikir verilirsə, bu mərasim Azərbaycanda ruhların qarşılanması ilə əlaqədar keçirilən "Ata-baba günü" mərasimini də yada salır, xatırladır.

B.Abdullanın fikrincə, "Xıdır Nəbi" mərasiminə, bir qayda olaraq, çillənin ilk günündən hazırlıq başlanır. Buğda qovrulub, əl daşında (kirkirədə) üyüdülərək, qovut çəkilir. Qaynadılmış yumurtalar daha çox Günəşin və yazın simvolu sayılan sarı, qırmızı və yaşıl rənglərlə boyanılır. İstifadə verən xörəklər bişirmək üçün tədarük görülür. Çəkilmiş qovutdan bir qab "Xıdır Nəbi"nin sonuncu gecəsi, adətən, yük dolablarının altına, divar taxçalarının əl dəyilməmiş künclərinə qoyulur. Etiqada görə, həmin gecə Xıdır Nəbi gəlib qovutun üstünə əl basır və bununla da, evdə bolluq, bərəkət yaranır.

Çox qədim zamanlarda, hələ şamın olmadığı vaxtlarda, Azərbaycanın bəzi bölgələrində Xıdır Nəbi mərasimi günü bağ-bağatdan alma çubuqları qırılıb evə gətirilirmiş. Bu çubuqların uclarına pambıq sarınaraq, yağ sürtülər və süfrəyə qoyulmuş qovutun üstə sancılaraq yandırılarmış. Həmin çubuqların hərəsi bir niyyət üçün imiş: yurdun abadlığı, ailənin salamatlığı, bağ-bostanda barın çoxluğu, mal-qaranın artması, toy-düyün və s.

Burada, təbii olaraq, belə bir sual ortaya çıxır: Xıdır Nəbi mərasimində nə üçün başqa ağacın yox, alma ağacının budaqlarından şam kimi istifadə olunur? Bəlli olduğu üzrə, Azərbaycan folklor örnəklərində, xüsusən, nağıl və dastanlarında digər meyvələrlə tutuşdurmada, alma üstün mövqe tutur. O, insan ömrünü uzadan, adamlara gümrahlıq verən, qocaları cavanlaşdıran, nəsil, soy artıran, yəni uşaqsızlara uşaq bəxş edən sayılır. Hətta əski zamanlarda sevgili seçmək üçün də almadan bir vasitə kimi istifadə edilmişdir. "Almaatma" adlı mərasimdə qız öz sevgisini oğlana atdığı alma ilə bildirərmiş. Yaxud almanın ömrü uzatmaq məsələsinə diqqət edək. Məşhur Azərbaycan nağılı "Məlik Məmməd"də deyilir ki, nağılda tanıdılan padşahın bağında bir alma ağacı var imiş. Bu ağac birinci gün çiçək açır, ikinci gül çiçəyini tökür, üçüncü gün bar verirmiş. Bu ağacın almasından kim yesə imiş, dönüb on beş yaşında oğlan olurmuş. "Quru kəllə" nağılında isə tutuquşunun gətirdiyi alma tumundan bitən ağacın meyvəsindən yeyən altmış yaşlı bağban o saat on dörd gecəlik ay kimi oğlan olur. "Ölü Məhəmməd" nağılında isə almanın soy və nəsil artırma qüdrətindən söz açılır. Burada deyilir ki, gün-güzəranını odunçuluqla keçirən bir kişinin övladı olmur. Yenə bir dəfə kişi odun qırmağa gedir və bu vaxt qapıya gələn dərviş onun arvadına bir alma verib deyir: "Almanın yarısını özün ye, yarısını da ərinə ver yesin; sonra bir övladınız olar". Almanın yardımı ilə nəsilartırmaya "Məlik Məmməd və Məlik Əhməd" nağılında da rast gəlirik. Burada padşah və naxırçının bir almanı tən bölüb arvadları ilə birlikdə yemələri ilə hər ikisinin oğlu olur. "Şah İsmayıl - Gülzar xanım" dastanında isə dərvişin verdiyi almanı yeməklə, nəinki padşahın özünün, hətta almanın qabıqlarını yeməklə atı Qəmərnişanın da qulunu olur və s. Əlbəttə, belə örnəklərin sayını istənilən qədər artırmağın heç bir çətinliyi yoxdur. Əsas məsələ budur ki, təbabət elminin dəlillər əsasında gəldiyi qənaətə görə, almanın tərkibindəki vitaminlər insan orqanizmindəki hüceyrələrin qocalması prosesinin qarşısını alır, insan ömrünü uzadır və sonsuzluğa dayandırmaqla övlad bəxşetmə funksiyası daşıyır.

B.Abdulla daha sonra yazır: "Deməli, müşahidə və təcrübələrinə əsaslanan qədim azərbaycanlının da Xıdır Nəbi mərasimində nə üçün, məhz alma ağacının çubuqlarından istifadə etməsi, olsun ki, elə bu görüşlərlə bağlıdır.

Süfrədə üstündə şamlar yanan qovutdan ailə üzvləri lap sonda yeyirlər. İnanırlar ki, şamlar yanan vaxtda ata-baba ruhları kimi, Xıdır Nəbi də gözə görünmədən gəlib bu qovutdan dadır.

Burada çox incə şəkildə sezilən bir mətləbi də nəzərə çatdırmaq istəyirik. Uşaqların ayrı vaxtda yox, məhz şər qovuşandan sonra, göz-gözü görməyəndə, daha aydın desək, onların tanınması qeyri-mümkün olduğu vaxtda pay almağa gəlmələri səbəbsiz deyil. İnama görə, elə Xıdır Nəbi də onların arasında olur. Odur ki, hər bir ev tərəddüd etmədən uşaqların simasında, guya elə Xıdır Nəbinin özünə pay verir.

Bəzən elə Xıdır Nəbi mərasimi üçün də qarpız saxlanılır və bununla, adamlar bir növ yenə qışdan qorxmadıqlarını nümayiş etdirirlər. Kiçik çillənin qurtardığı vaxtdan yazın ilk gününə, yəni Novruz bayramına qədər olan çağ Alaçalpo, Ağlar-gülər, Boz ay adlanır. Ayinin bu cür adlarla adlanması, onun buludlu, yağışlı, küləkli, isti, soyuq, bir sözlə, dəyişkən olması ilə bağlıdır. Əbəs yerə deyil ki, xalq bu adlara Boz aya münasibətini "Boz ay bozara-bozara keçər" - şəklində bildirmişdir".

Buradakı "bozara-bozara"nın həm müstəqim, həm də məcazi mənası vardır. Bəlli olduğu üzrə, "boz" dilimizdə bir sıra anlamlarla yanaşı, həmçinin, həm rəngi (boz paltar, qorxudan, yaxud soyuqdan insan üzünün boz rəng alması), həm də xasiyyəti, sərtliyi və kobudluğu (boz adam, üzə bozarmaq) bildirir. "Boz ay bozara-bozara keçər" - deyəndə də, daha çox onun sərtliyi nəzərdə tutulur.

Boz ay, hər biri yeddi gündən ibarət cəmlələr adlanan dörd həftəyə - çillə-beçəyə bölünür. Etiqada görə, bu həftələrin dördündə, eləcə də, Kiçik çillənin üç çərşənbəsində təbiət və cəmiyyətdə canlanma, oyanma, dirilmə prosesi gedir. Dediyimiz yeddi çərşənbədən üçü oğru çərşənbə, oğru buğ, oğru üskü, dördü isə doğru çərşənbə, doğru buğ, doğru üskü və cəmlələr adlanır. Çərşənbələrin sayının yeddi olması səbəbsiz deyil. Bu, bilavasitə, say simvolikası ilə bağlıdır. Belə ki, simvolikada hər sayın özünə görə mənası, bilinən funksiyası vardır. Bu sayların sırasına cütlük bildirən saylar daha çox geosimvolika ilə istiqamətgöstərmə ilə bağlıdırsa, təklik sayları, ümumiyyətlə, kainatın durumunu səciyyələndirir. Qaynaqların verdiyi xəbərə görə, yeddi sayı əski şumerlərdə kainatın işarəsi imiş. Onların ucaltdıqları yeddipilləli qüllə, əslində, yeddi səyyarənin, həftənin yeddi gününün, yeddi küləyin və yeraltı dünyanın yeddi qapısının simvoludur. Yeddi sayı, mənbələrdə deyildiyi kimi, zamanla, kosmosla, insanın maddi və mənəvi həyatı ilə sıx bağlıdır.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

***Səməni halvası bişirmək üçün Böyük çillənin əvvəllərindən başlayaraq, təqribən 1 sm hündürlüyündə göyərdilmiş səmənini taxta çanaq, yaxud taxta tabaqda daşla əzir və döyüb suyunu sıxırlar. Həmin suda yeddi evdən alınmış buğda unundan sıyıq xəmir yoğurulur. Halvanı bişirməyə başlayarkən, onu qarışdırmaq və çalmaq üçün uzun dəstəkli taxta ərsindən istifadə edilir.***

Qolu qüvvətli cavanlar tərəfindən çalınan halva bişənə, köpük atana yaxın - buna "fındıqatma" deyilir - onun içinə badam, bu olmadıqda fındıq ləpəsi atılır. Elə Səməni bayramının başlıca ayini də bu vaxtdan başlanır. Halva bişirilən evə toplaşmış qadınlar, daha çox gəlinlər və qızlar iki dəstəyə bölünərək əl-ələ verib halva tavasının ətrafında yallı gedir və nəğmələr oxuyurlar.

Folklorşünas-alim Bəhlul Abdulla yazır: "Halva hasilə gəldikdə, daha çox bədənə istilik, hərarət gətirən və bununla da, qışdan, soyuqdan qorxmamaq təsəvvürü yaradan bu döyülmüş ədvaları (qara istiot, darçın, mixək, razyana, ceviz, qulunca, badyan, qulsakəmər, zəncəfil, hil) ələkdən keçirib ona qatırlar. Bundan sonra halvanı doşabda qarışdırır və qoğal, yaxud kündə formasında yumrulayıb, evlərə paylayırlar. Çalışılır ki, hər bir payda halvaya salınmış badam, qoz, yaxud fındıq ləpəsindən olsun. Həm də payın içindəki bu ləpə yeyilmir. O ta gələn il Səməni göyərdilənə qədər qorunub saxlanılır. Çünki inama görə, həmin ləpə evlərə xeyir-bərəkət gətirir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Diqqət: Hamiləlik zamanı bu 2 dərmanın qəbulu yolverilməzdir!

Kopenhagen Universiteti (Danimarka) qadınlara hamiləlik zamanı ağrıkəsici preparatları qəbul etməyi tövsiyə etmirlər. Söbət xüsusilə aspirindən gedir. The Hindustan Times xəbər verir ki, alimlərin müşahidələrinə görə, hamiləlik zamanı aspirin qəbul edən qadınların uşaqlarında ağır sinir sistemi pozulması olan uşaq serebral iflicinin riski 2,5 dəfə daha çoxdur.



Mütəxəssislər 190 minə qədər qadın və uşağların məlumatlarını təhlil ediblər. Bu qadınların arasında hamiləlik zamanı aspirin, parasetamol və ibuprofen qəbul edən qadınlar olub. Alimlər aşkar ediblər ki, aspirin və parasetamolun qəbulu uşaq serebral iflicinin riskini artırır. Alimlər bunu bu 2 dərmanın uşağın beyninə olan toksiki təsiri ilə izah edir. Alimlərin fikrinə görə, hamiləliyin ortalarında parasetamol və aspirinin qəbulu xüsusilə risklidir.

## Yapon oğlan uşaqları alim peşəsini ən maraqlı hesab edirlər

Yaponiyada bu yaxınlarda keçirilən sorğunun nəticələrinə görə, məktəbəqədər və məktəb yaşlı oğlanların əksəriyyəti elmi fəaliyyətə daha çox üstünlük verirlər.



AZƏRTAC xəbər verir ki, Yaponiyanın "Day-içi Seymey" şirkəti uşaq bağçasına və ibtidai məktəbə gedən uşaqlar arasında sorğu apararaq 1100 respondentdən alınan cavabları təhlil edib. Nəticəyə görə, oğlanların 8,8 faizi elmi fəaliyyətlə məşğul olmaq istədiklərini bildiriblər. Son 15 ildə ilk dəfə alim peşəsi ən maraqlı peşə seçilib.

Şirkətdə güman edirlər ki, bu nəticə yapon alimlərin son üç ildə Nobel mükafatına layiq görülməsi ilə əlaqədardır. Sorğunun nəticələrinə görə, qızlar arasında ən sevimli peşə kimi ərzaq mağazasında iş göstərilib. Belə ki, respondentlərin 11,3 faizi həmin peşəni seçib.

## Uşaqlarda xroniki böyrək çatışmazlığı əlamətsiz inkişaf edən problemdir

Uşaqlarda uroloji problemlərin əksəriyyəti anadangəlmə patologiyalarla bağlı səbəblərdən irəli gəlir. Belə patologiyalar gec aşkarlandıqda və ya mövcud problemə səhlənkar yanaşdıqda fəsad yaranır. Bununla yanaşı böyrəklər zədələnir, onların hüceyrələri ölməyə başlayır və böyrək çatışmazlığı inkişaf edir. Belə hallarla qarşılaşmamaq üçün zamanında həkimə müraciət etmək vacibdir. Mövcud problemin vaxtında və düzgün müalicəsi gələcəkdə yarana biləcək ağır fəsadların qarşısının alınması üçün ən effektiv profilaktik üsuldur. Respublika Müalicəvi Diaqnostika Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, uşaqlarda xroniki böyrək çatışmazlığı əlamətsiz inkişaf edən problemdir. Xəstəliyin qarşısını almaq üçün sadə bir sidik analizi ilə belə olduqca gərəkli məlumatları əldə etmək olar.

## ELAN

**Şirvan ŞPİ tərəfindən Quliyeva Sübnisə Əliqulu qızının adına verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

* * *

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fiziki tərbiyə və ÇH ixtisası üzrə II kurs tələbəsi Davudov Nemət Əzizağa oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## PSJ-dən Ronaldoya 300 milyon avro!



"Real"ın hücumçusu Kriştiano Ronaldo futbolçu karyerasını Fransada davam etdirə bilər. Qol.az-ın "El Confindencial"a istinadən yaydığı xəbərə görə, PSJ portuqaliyalı oyunçu ilə maraqlanır. Paris təmsilçisi artıq 32 yaşlı oyunçunun menecerinə təklif göndərib. Bu təklifin Lionel Messinin "Barselona" ilə yaxın vaxtlarda imzaladığı müqavilə ilə oxşar olduğu bildirilib. K.Ronaldo PSJ-yə keçməyə razılıq verəcəyi təqdirdə, argentinalı hücumçu kimi 5 ilə 300 milyon avro qazanacaq. Xəbərdə o da qeyd olunub ki, PSJ Ronaldo üçün Edinson Kavanini "Real"a təklif etməyə hazırdır. Qeyd edək ki, K.Ronaldonun daha 2 klubdan təklif aldığı iddia edilir.



## Braziliyalı yarımmüdafiəçi"Neftçi"də

Keçən il mövsümü Qazaxıstanın "Aktobe" heyətində başlamış braziliyalı yarımmüdafiəçi Viktor Junior (6 matç - Qazaxıstan Premyer Liqasının turniri çərçivəsində 1 qol) futbol karyerasını Azərbaycanda davam etdirəcək. AZƏRTAC rəsmi KİV-lərə istinadla xəbər verir ki, 31 yaşlı idmançı "Aktobe" komandasından ayrılandan sonra Braziliyanın ABC futbol klubunda çıxış edib. Viktor Junior 2017/2018-ci illər mövsümünün ikinci yarısında Azərbaycanın "Neftçi" klubunda oynayacaq.

## Misir yığması Afrikada ilin komandası seçilib



Misirin futbol üzrə yığma komandasına başçılıq edən Ektor Kuper Afrikada ilin ən yaxşı məşqçisi hesab edilib. AZƏRTAC xəbər verir ki, bu komanda Kuperin rəhbərliyi ilə 1990-cı ildən bəri ilk dəfə dünya çempionatının final mərhələsinə keçə bilib. Misir yığması ilin yaxşı milli komandası kimi mükafata layiq görülüb. Kasablankanın "Vidad" komandası Afrika çempionlar liqasında qalib gələrək "İlin klubu" adına layiq görülüb, "Red Bull Zalsburq" komandasının 19 yaşlı zambiyalı oyunçusu Petson Daka isə ən yaxşı gənc oyunçu hesab edilib.



## Viktor Valdes futbolla vidalaşdı

Əfsanəvi qapıçı Viktor Valdes karyerasını bitirdiyini elan edərək, bütün sosial şəbəkə hesablarını bağlayıb. SİA-nın məlumatına görə, İspaniya mətbuatı futbolçunun bu addımı ailəsinə daha çox vaxt ayırmaq üçün atdığını bildirir. 35 yaşlı qapıçı sosial şəbəkə hesabında "Hər şey üçün təşəkkürlər", yazaraq futbol həyatına nöqtə qoyub. Məşhur futbolçu son "tweet"indən sonra bütün sosial şəbəkələrindəki paylaşımlarını silib. Uzun illər "Barselona"nın formasını geyinən V.Valdes son olaraq "Midlsbro" klubunun şərəfini qoruyub. Xatırladaq ki, V.Valdes 2015-ci ildə reportajların birində "İşıqlar sönəndə tamamilə getmiş olacağam",- deyə bildirmişdi. Onun paylaşımlarını silməsi hamının ağlına bu sözlərini gətirir.

## Evra "Qalatasaray"a keçir?



Fransa millisinin sabiq üzvü Patris Evra "Qalatasaray"a keçməyə yaxındır. Qol.az-ın Türkiyə mətbuatına istinadən yaydığı xəbərə görə, İstanbul klubu 36 yaşlı müdafiəçinin meneceri Pastorellonu Türkiyəyə dəvət edib. Bu gün tərəflər arasında görüş olacaq. Razılıq əldə olunacağı təqdirdə, yaxın günlərdə rəsmi müqaviləyə imza atılacaq. Qeyd edək ki, P.Evra ilə 1 il müddətinə artırmaq olmaqla mövsümün sonuna qədər müqavilə imzalanacağı gözlənilir. Yarım mövsüm üçün P.Evraya 1 milyon 250 min avro təklif ediləcək. Xatırladaq ki, P.Evra ötən ilin noyabrında Avroliqa oyunundan əvvəl azarkeşi döydüyü üçün "Marsel" onunla müqaviləni ləğv etmişdi.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

***Buraxılışa məsul: Mətləb Salahov***

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**